# BEŞİNCİ ÇAĞIRIŞ
# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# XII SESSİYASI İCLASININ

# PROTOKOLU № 93

*Milli Məclisin iclas salonu.*
*9 aprel 2019-cu il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin Sədri **O.Əsədov** sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 102 deputatı iştirak etmişdir.**

| **Qeydiyyat** | (saat 12.03 dəq.) |
| --- | --- |
| İştirak edir | 89 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**Vüqar Gülməmmədov**, Azərbaycan Respublikası Hesablama Palatasının sədri.

**Adil Məhərrəmov**, Azərbaycan Respublikası Hesablama Palatası sədrinin müavini.

**Cəfər Həsənov**, Azərbaycan Respublikası Hesablama Palatasının auditoru.

**Mehriban Əlişanova**, Azərbaycan Respublikası Hesablama Palatasının auditoru.

**Firsənd Qurbanov**, Azərbaycan Respublikası Hesablama Palatasının auditoru.

**Fazil İbrahimov**, Azərbaycan Respublikası Hesablama Palatasının auditoru.

**Məhəmmədəli Süleymanov**, Azərbaycan Respublikası Hesablama Palatası Aparatının rəhbəri.

**Vəfa Mütəllimova**, Azərbaycan Respublikası Hesablama Palatası Aparatının şöbə müdiri.

**Nəsir Sadıqov**, Azərbaycan Respublikası Hesablama Palatası Aparatının şöbə müdiri.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. Azərbaycan Respublikası Hesablama Palatasının hesabatı haqqında.

2. "Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında Azərbaycan Respublikasının və Qazaxıstan Respublikasının rabitə operatorları tərəfindən Azərbaycan–Qazaxıstan marşrutu üzrə Xəzər dənizinin dibi ilə fiber-optik rabitə xətlərinin birgə tikintisi, sahibliyi və istifadəsində müştərək fəaliyyətin təşkili haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

3. Azərbaycan Respublikasının Ailə Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

4. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

5. "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

6. "Fitosanitar nəzarəti haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının İnzi-

bati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

7. Azərbaycan Respublikasının Su Məcəlləsində, Azərbaycan Respublikasının Meşə Məcəlləsində, Azərbaycan Respublikasının Torpaq Məcəlləsində və Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (birinci oxunuş).

8. "Meliorasiya və irriqasiya haqqında", "Əhalinin radiasiya təhlükəsizliyi haqqında", "Balıqçılıq haqqında", "Elektroenergetika haqqında" və "Nəqliyyat haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

9. "Ekoloji təhlükəsizlik haqqında", "Su təchizatı və tullantı suları haqqında", "Avtomobil yolları haqqında", "Ətraf mühitə dair informasiya almaq haqqında", "Aviasiya haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

10. "İctimai iştirakçılıq haqqında", "Dəniz limanları haqqında", "Yaşıllıqların mühafizəsi haqında" və "Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

11. "Kənd təsərrüfatı kooperasiyası haqqında", "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında", "Turizm haqqında" və "Elektrik və istilik stansiyaları haqqında"

Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

12. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

13. Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

14. "Hərbi vəzifə və hərbi xidmət haqqında", "Lisenziya və icazələr haqqında", "Məktəbəqədər təhsil haqqında" və "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

15. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (birinci oxunuş).

16. Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Mənzil Məcəlləsində, Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (birinci oxunuş).

17. "Auditor xidməti haqqında", "İnvestisiya fəaliyyəti haqqında", "Müflisləşmə və iflas haqqında", "Kiçik sahibkarlığa dövlət köməyi haqqında", "Yeyinti məhsulları haqqında", "Notariat haqqında", "Kredit ittifaqları haqqında" və "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi

haqqında (birinci oxunuş).

18. “Kommersiya sirri haqqında”, “Banklar haqqında”, “Mühasibat uçotu haqqında”, “İctimai televiziya və radio yayımı haqqında”, “Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında”, “Qiymətli metallar və qiymətli daşlar haqqında”, “İnformasiya əldə etmək haqqında”, “Daxili audit haqqında” və “Auditorun peşə məsuliyyətinin icbari sığortası haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

19. “Sığorta fəaliyyəti haqqında”, “Bank olmayan kredit təşkilatları haqqında”, “İnvestisiya fondları haqqında”, “Qiymətli kağızlar bazarı haqqında” və “Antidempinq, kompensasiya və mühafizə tədbirləri haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Gündəlik qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.04 dəq.) |
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**1. Azərbaycan Respublikası Hesablama Palatasının hesabatı haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Vüqar Gülməmmədov, Ziyad Səmədzadə, Fəzail Ağamalı, İlham Məmmədov, Ziyafət Əsgərov, Fazil Mustafa, Əflatun Amaşov, Vahid Əhmədov, Əli Məsimli, Aydın Hüseynov, Siyavuş Novruzov, Qüdrət Həsənquliyev

**Təklif:** Qərar qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.11 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**2. "Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında Azərbaycan Respublikasının və Qazaxıstan Respublikasının rabitə operatorları tərəfindən Azərbaycan–Qazaxıstan marşrutu üzrə Xəzər dənizinin dibi ilə fiber-optik rabitə xətlərinin birgə tikintisi, sahibliyi və istifadəsində müştərək fəaliyyətin təşkili haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyad Səmədzadə, Aydın Mirzəzadə

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.16 dəq.) |
| Lehinə | 94 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**3. Azərbaycan Respublikasının Ailə Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Hadi Rəcəbli

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.18 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**4. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyad Səmədzadə, Fazil Mustafa

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.25 dəq.) |
| Lehinə | 93 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

**5. "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.25 dəq.) |
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

**6. "Fitosanitar nəzarəti haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Eldar İbrahimov, Elmira Axundova

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.31 dəq.) |
| Lehinə | 86 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 86 |
| Nəticə: Qəbul edildi | |

**7. Azərbaycan Respublikasının Su Məcəlləsində, Azərbaycan Respublikasının Meşə Məcəlləsində, Azərbaycan Respublikasının Torpaq Məcəlləsində və Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (birinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Valeh Ələsgərov, Fəzail Ağamalı

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.37 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

**8. “Meliorasiya və irriqasiya haqqında”, “Əhalinin radiasiya təhlükəsizliyi haqqında”, “Balıqçılıq haqqında”, “Elektroenergetika haqqında” və “Nəqliyyat haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Eldar İbrahimov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.40 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**9. "Ekoloji təhlükəsizlik haqqında", "Su təchizatı və tullantı suları haqqında", "Avtomobil yolları haqqında", "Ətraf mühitə dair informasiya almaq haqqında", "Aviasiya haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Valeh Ələsgərov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.41 dəq.) |
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**10. "İctimai iştirakçılıq haqqında", "Dəniz limanları haqqında", "Yaşıllıqların mühafizəsi haqqında" və "Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsi haqqında" Azərbaycan Respublikasının**

**qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.42 dəq.) |
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**11. "Kənd təsərrüfatı kooperasiyası haqqında", "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında", "Turizm haqqında" və "Elektrik və istilik stansiyaları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Eldar İbrahimov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.45 dəq.) |
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**12. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.46 dəq.) |
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs verмədi | 1 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**13. Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, İsa Həbibbəyli

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.50 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**14. “Hərbi vəzifə və hərbi xidmət haqqında”, “Lisenziya və icazələr haqqında”, “Məktəbəqədər təhsil**

**haqqında" və "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.50 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**15. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (birinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.52 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**16. Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində,**

**Azərbaycan Respublikasının Mənzil Məcəlləsində, Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (birinci oxunuş).**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.53 dəq.) |
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |

Nəticə: Qəbul edildi

**17. "Auditor xidməti haqqında", "İnvestisiya fəaliyyəti haqqında", "Müflisləşmə və iflas haqqında", "Kiçik sahibkarlığa dövlət köməyi haqqında", "Yeyinti məhsulları haqqında", "Notariat haqqında", "Kredit ittifaqları haqqında" və "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyad Səmədzadə

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.56 dəq.) |
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

**18. “Kommersiya sirri haqqında”, “Banklar haqqında”, “Mühasibat uçotu haqqında”, “İctimai televiziya və radio yayımı haqqında”, “Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında”, “Qiymətli metallar və qiymətli daşlar haqqında”, “İnformasiya əldə etmək haqqında”, “Daxili audit haqqında” və “Auditorun peşə məsuliyyətinin icbari sığortası haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.57 dəq.) |
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

**19. “Sığorta fəaliyyəti haqqında”, “Bank olmayan kredit təşkilatları haqqında”, “İnvestisiya fondları haqqında”, “Qiymətli kağızlar bazarı haqqında” və “Antidempinq, kompensasiya və mühafizə tədbirləri haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.57 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin Sədri** **O.ƏSƏDOV**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*9 aprel 2019-cu il. Saat 12.*

*Azərbaycan Respublikası Milli Məclisinin Sədri* ***Oqtay Əsədov*** *sədrlik edir*

**Sədrlik edən.** Xoş gördük, hörmətli millət vəkilləri. Xahiş edirəm, qeydiyyatdan keçək.

| **Qeydiyyat** | (saat 12.03 dəq.) |
|---|---|
| İştirak edir | 89 |
| Yetərsay | 83 |

Çox sağ olun, yetərsay var, iclasa başlaya bilərik. Bilirsiniz ki, gündəliyimizdə bu gün 19 məsələ var. Gündəlik sizə paylanıb. Xahiş edirəm, gündəliyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.04 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, gündəlik təsdiq edildi. Hazırda beynəlxalq təşkilatlarda ezamiyyətdə olan çoxlu millət vəkilləri var. Xahiş edirəm, səsvermədə diqqətli olaq. Müzakirələrə ehtiyac var?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Onda bilirsiniz ki, bu gün Azərbaycan Respublikası Hesablama Palatasının hesabatıdır. Buyursun hörmətli Vüqar Gülməmmədov.

**V.Gülməmmədov,** *Azərbaycan Respublikası Hesablama Palatasının sədri.*

Hörmətli Oqtay müəllim, hörmətli millət vəkilləri, media nümayəndələri! 2018-ci il Azərbaycan Respublikası üçün əlamətdar illərdən olmuşdur. Ötən il Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin xalqın etimadını bir daha qazanaraq Prezident seçkilərində parlaq qələbə çaldığı, Şərqdə ilk demokratik respublikanın yaranmasının 100 illik yubileyinin, ordunun və parlamentin bir əsrlik yaşının qeyd edildiyi il olmuşdur.

2018-ci ildə Hesablama Palatasının tarixində də mühüm hadisə baş vermiş, müasir çağırışlara cavab vermək imkanı yaradan yeni qanun qəbul edilmişdir. Bu qanunun qəbulu vəzifələrimizi, səlahiyyətlərimizi genişləndirməklə və dəqiqləşdirməklə dövlət vəsaitlərinin icrasına nəzarət sahəsində yeni yanaşmaların tətbiqi üçün hüquqi bazanı formalaşdırmış və bərabər olaraq məsuliyyətimizi də dəfələrlə artırmışdır. Həmçinin, 2018-ci ildə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə dövlət büdcəsinin vəsaitlərinin icrası ilə bağlı təqdim edilən hesabatların sayının artırılması və dövriliyinin müəyyən edilməsi məqsədini güdən 2 qərar qəbul edilmişdir.

2018-ci ildə Hesablama Palatası tərəfindən həyata keçirilən fəaliyyətin hər bir istiqaməti üzrə qanunvericiliyin

tələblərinə uyğun olaraq tərəfimizdən hesabat tərtib edilmiş və hörmətli millət vəkillərinə təqdim edilmişdir. Bu hesabatda 2018-ci ildə Hesablama Palatasının əsas fəaliyyət göstəricilərinə dair mühüm informasiyalar, o cümlədən nəzarət fəaliyyətinin nəticələri və bu fəaliyyətin keyfiyyətinin yaxşılaşdırılması istiqamətində nəzərdə tutulan tədbirlər, beynəlxalq audit standartlarına keçidin təmin edilməsi məqsədi ilə hazırlanmış metodoloji təlimatlar, hökumət və hüquq mühafizə orqanları ilə şəffaflığın və hesabatlılığın təmin edilməsi sahəsində əməkdaşlıq, kadrların inkişafı üzrə və beynəlxalq fəaliyyət barədə məlumatlar yer almışdır.

Çıxışıma ilk olaraq 2018-ci ildə həyata keçirilmiş nəzarət tədbirlərinin əhatə dairəsi barədə məlumatlarla başlamaq istərdim. İlk olaraq qeyd edim ki, 2018-ci ildə ümumilikdə 58 nəzarət tədbirinin, o cümlədən 53 auditin və 5 təhlilin nəticələrinə dair kollegiya qərarları qəbul edilmiş, 1 tədbir növbəti ilə keçirilmiş, 1 tədbirin nəticələri hesabat dövrünədək yekunlaşdırılmamışdır. Başa çatdırılmış 53 audit tədbirinin 3-ü "Dövlət sirri haqqında" Qanunun tələblərinə uyğun olaraq hüquq mühafizə orqanlarında məxfi qaydada aparılmış, 5 tədbir isə Dövlət Sosial Müdafiə Fondunun fəaliyyətini əhatə etmişdir. Audit tədbirləri ilə ümumilikdə 10,2 milyard manat vəsait əhatə olunmuşdur ki, bunun da 60,5 faizini dövlət büdcəsinin xərcləri təşkil edir. Ümumilikdə hesabat ilində dövlət büdcəsinin auditlə əhatə olunmuş məbləği 2017-ci illə müqayisədə artsa da, əhatə edilmiş cəmi məbləğ əvvəlki ilin müvafiq göstəricisi ilə müqayisədə 6,8 faiz az olmuşdur. Dövlət büdcəsinin nəzarətlə əhatə olunmuş 6,2 milyard manat məbləğinin təqribən tam yarısını 2017-ci il, 21,1 faizini 2018-ci il üzrə xərclər, qalan 28,2 faizini isə

2016-cı ildə icra edilmiş vəsaitlər təşkil etmişdir. Aparılmış audit tədbirlərində dövlət büdcə xərclərinin funksional təsnifatı bölmələrinin əhatəliyinin, həmçinin mərkəzləşdirilmiş və yerli xərclərin, büdcədənkənar dövlət fondlarının büdcələrinin xərclərinin, büdcədənkənar fəaliyyətdən əldə olunan gəlirlər üzrə xərclərin əhatəliliyi ilə təmin edilməsinə çalışmışıq.

2018-ci ildə Hesablama Palatası tərəfindən ilk dəfə olaraq Dövlət Neft Fondunun büdcəsinin icrasına dair rəy hazırlanmış, Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanında müəyyən edildiyi kimi, Fondun Müşahidə Şurasına təqdim edilmişdir. 2017-ci ilin dövlət büdcəsinin icrasına dair rəylə yanaşı, inzibati təsnifat üzrə ayrı-ayrı qurumların, təqribən 109 qurumun dövlət vəsaitinin icrasına dair daha ətraflı məlumatları özündə əks etdirən əlavə hesabatı tərtib edilmiş və rəsmi internet səhifəsində yerləşdirilmişdir.

Dövlət büdcəsindən maliyyələşən və xüsusi maliyyə yükünə malik olan 10 təşkilatın maliyyə hesabatları ətraflı təhlil olunmuş və həmin təhlillərlə müəyyən edilmiş iradların aradan qaldırılması ilə bağlı müvafiq tədbirlərin görülməsi üçün həmin qurumlara göndərilmişdir.

Maliyyə inzibatçılığı sahəsində mövcud olan xarakterik nöqsanların və təsiredici meyillərin müəyyən olunması məqsədi ilə hesabat ilində başa çatdırılmış 53 auditlə aşkarlanmış nöqsanlar təhlil olunmuşdur.

Hörmətli millət vəkillərinə məlum olduğu kimi, son illər tərəfimizdən normativ-hüquqi aktların tələblərinə riayət edilməmə halları 8 istiqamət üzrə təsnifləşdirilir. Diqqətinizə çatdırım ki, 2018-ci ildə həmin istiqamətlər üzrə ümumilikdə 714 halda nöqsan müəyyən edilmişdir. Bu, əvvəlki ilin göstəricisi ilə müqayisədə 3,6 faiz çoxdur.

Lakin 2017-ci ildə auditlərin sayının hesabat ili göstərici ilə müqayisədə 8,2 faiz az olduğunu nəzərə alsaq, 1 nəzarət tədbiri ilə müəyyən edilmiş nöqsanların orta sayının azalma meylli olduğunu deyə bilərik. Bu maliyyə idarəetmə strukturunda aparılmış siyasətin, maliyyə inzibatçılığının gücləndirilməsi istiqamətində atılan addımların, dövlət vəsaitlərinin istifadəsi sahəsində normativ-hüquqi aktların təkmilləşdirilməsi üzrə aktiv fəaliyyətin ilk nəticələridir. Müşahidə edən meyllərdən biri də maliyyə və prosedur xarakterli pozuntular arasındakı nisbətin dəyişməsidir. Belə ki, prosedur pozuntularının maliyyə xarakterli pozuntulara nisbətən üstünlük təşkil etməsi də qeyd edilməli müsbət meyllərdəndir.

Nəticələr üzrə aparılmış təhlillər göstərir ki, auditlə aşkar edilmiş nöqsanların orta göstəricisində kiçik də olsa azalma müşahidə olunsa da, ümumilikdə bu nöqsanlar arasında xüsusi çəkisi böyük olan istiqamətlər son illər dəyişməz qalmışdır. Belə ki, büdcə qanunvericiliyinin tələblərinə riayət edilməsi sahəsində dövlət satınalmalarının keçirilməsində, həmçinin mühasibat uçotunun təşkili və hesabatlılığının təmin olunmasında müəyyən olunmuş nöqsanlara 2018-ci ildə də nisbətən daha çox rast gəlinmişdir.

Hörmətli millət vəkilləri, Ali Audit Qurumlarının Beynəlxalq Təşkilatı olan INTOSAI tərəfindən qəbul edilmiş "Auditin təməl prinsipləri barədə" Lima bəyannaməsi fərdi hallarda təsisedici tədbirlərin həyata keçirilməsini, müvafiq işçilərin öz məsuliyyətini dərk etməsini, qanun pozuntularının aradan qaldırılmasını və ən azı məhdudlaşdırılmasını təmin etməyi dövlət auditini həyata keçirən qurumlar qarşısında bir məqsəd olaraq təsbit etmişdir. Bu baxımdan da, Hesablama Palatasının qəbul etdiyi kollegiya qərarlarında nöqsanların aradan qaldırıl-

ması istiqamətində tədbirlər əks olunur. Şəffaflıq və hesabatlılıq prinsiplərinin təmin edilməsi, həmçinin nəzarət obyektləri tərəfindən yol verilmiş nöqsanlar və bu qurumlar tərəfindən görülmüş tədbirlər arasında əlaqə barədə məlumatın hörmətli millət vəkillərinə verilməsi məqsədi ilə məlumatlar hesabata ayrı-ayrı qurumlar üzrə daxil edilmişdir.

Diqqətinizə çatdırmaq istərdim ki, Hesablama Palatası tərəfindən 2018-ci ildə aparılmış fəaliyyətin nəticəsi olaraq yalnız manat ifadəsində qurumların hesabına dövlət büdcəsinə və Dövlət Sosial Müdafiə Fondunun büdcəsinə ümumilikdə 23,2 milyon manat vəsaitin bərpası təmin edilmişdir. Bununla yanaşı, 5,5 milyon manat dəyərində malların alınması və işlərin görülməsi natural qaydada bərpa olunmuş, 922,5 min manat vergi məbləğinin dövlət müəssisəsinin dövlət büdcəsinə artıq ödəmələri hesabına əvəzləşdirilməsi təmin edilmişdir. Qeyd edim ki, əldə olunan nəticələrin müəyyən hissəsi dövlət vəsaitlərinin gələcək illərdə səmərəli və qənaətli istifadəsinə xidmət edəcək. Belə ki, artıq ştatların ləğv edilməsi, artıq maliyyələşmə, həmçinin müqavilə məbləğlərinin azaldılması, lüzumsuz debitor borcların ləğv edilməsi və bu istiqamətdə növbəti illərdə artıq xərclərin baş verməsinin qarşısını almışdır.

Hesabat ili üzrə müşahidə edilən digər bir müsbət meyl kollegiya qərarlarının icra səviyyəsi ilə bağlıdır. Qeyd edim ki, kənar dövlət maliyyə nəzarəti obyektləri arasında aparılmış maarifləndirmə, normativ-hüquqi aktların daha da təkmilləşdirilməsi və inzibati məsuliyyətin nəzərdə tutulması qərarlarla müəyyən olunmuş tədbirlərin nəzarət obyektləri tərəfindən icra səviyyəsinin yüksəlməsinə gətirib çıxarmışdır.

Hörmətli millət vəkilləri, auditin təməl prinsipləri barədə Lima bəyannaməsi auditin tənzimləyici sisteminin tər-

kib elementini müəyyən etməklə maliyyə inzibatçılığının qanunilik, səmərəlilik, təsirlik və qənaətlik prinsiplərinin pozulmasını və qəbul edilmiş standarlardan kənarlaşmaların qabaqcadan aşkar edilməsini kənar dövlət maliyyə nəzarəti orqanları qarşısında bir məqsəd olaraq qoymuşdur. Məhz nöqsanların qabaqcadan müəyyən edilməsi ali audit qurumları qarşısında vəsaitlərin proqnozlaşdırılması, icrası sahəsində normativ hüquqi aktlarda aşkar edilmiş boşluqlar, təkrarçılıq və çatışmazlıqlar, həmçinin büdcə vəsaitlərinin daha qənaətli və səmərəli istifadə edilməsinə xidmət edən təkliflərin hazırlanmasını nəzərdə tutur. Hesablama Palatası hesabat ilində bu sahədə bir neçə istiqamət üzrə addımlar atmışdır. Belə ki, dövlət büdcəsinin və büdcədənkənar dövlət fondlarının layihələrinə və icrasına dair hazırlanmış rəylərdə 111 tövsiyə əks etdirilmişdir. Həmçinin 2018-ci ildə nəzarət tədbirlərinin nəticəsi olaraq formalaşmış 6 təklif Nazirlər Kabinetinə təqdim olunmuşdur. Hesabat ilində əvvəlki illərdə Nazirlər Kabinetinə təqdim edilmiş təkliflər arasında aktuallığını qoruyan və xüsusi əhəmiyyət kəsb edən 21 təklif yenidən Nazirlər Kabinetinə təqdim edilmişdir. Qeyd edim ki, həmin təkliflərin 67 faizi qəbul edilərək müvafiq dəyişikliklər həyata keçirilmiş və ya normativ hüquqi aktların layihələri hazırlanmışdır. Qanunvericilik aktların təkmilləşdirilməsi ilə bağlı fəaliyyətimiz, eyni zamanda, korrupsiya əleyhinə mübarizə istiqamətindədir və bu fəaliyyət beynəlxalq təcrübədə dövlət auditini həyata keçirən qurumların əsas vəzifələrindən biri hesab olunur. Hesabat ilində korrupsiya əleyhinə mübarizə istiqamətində müvafiq qurumlarla sıx əməkdaşlıq davam etmişdir. 2018-ci ildə aparılmış nəzarət tədbirlərinin 9-u üzrə müvafiq məlumatlar aidiyyəti hüquq mühafizə orqanlarına göndəril-

mişdir. Qeyd edim ki, həmin tədbirlərin 4-ü inzibati, 5-i isə cinayət xarakterli olmuşdur.

Hörmətli millət vəkilləri, hesabat ilində Hesablama Palatası kənar dövlət maliyyə nəzarəti orqanlarının qarşısında qoyulan əsas tələblərdən biri, fəaliyyəti ilə bağlı hesabatvermə tələbinin icrası istiqamətində tədbirlər də həyata keçirmişdir. İctimaiyyətin məlumatlandırılması məqsədi ilə Hesablama Palatasının rəsmi internet səhifəsində fəaliyyətin hər bir istiqaməti üzrə məlumatlar daim yenilənmiş, 23 audit tədbiri haqqında məlumatlar həmin veb səhifəmizdə əks olunmuşdur. Nəzarət fəaliyyətini əhatə edən tədbirlər üzrə hesabatların, əməkdaşlarımızın dövlət auditi sahəsində apardığı təhlillərin əks olunduğu "Dövlət auditi" bülleteninin 4 nömrəsi çapdan çıxmış və 16 nəzarət tədbiri barədə geniş auditor hesabatı dərc edilmişdir.

2018-ci ildə vətəndaş müraciətləri 2017-ci illə müqayisədə çox olmuşdur. Müraciətlərin 69,1 faizi Hesablama Palatasının nəzarət fəaliyyəti ilə bağlı təkliflərdən ibarət olmuşdur ki, bu da fəaliyyətimizə vətəndaş marağının bir ifadəsidir. Hesabat ilində vətəndaşların müraciət etdiyi 3 məsələ nəzarət tədbiri zamanı vətəndaşın iştirakı ilə araşdırılmış və müvafiq addımlar atılmışdır. Nəzarət fəaliyyətinin beynəlxalq standartlara uyğun təşkil edilməsi kadr potensialının gücləndirilməsini tələb edir. Bu istiqamətdə də bir sıra tədbirlər həyata keçirilmiş, 2 xarici dövlət ali audit qurumu ilə ikitərəfli əməkdaşlıq barədə saziş imzalanmış, Hesablama Palatasının əməkdaşlarının INTOSAI və onun işçi qurumları üzrə 4 beynəlxalq tədbirdə, EUROSAI və AFROSAI-nın ümumilikdə 3 tədbirində iştirakı təmin edilmişdir. Bundan əlavə, MDB üzvü olan dövlətlərin ali audit qurumlarında və EKOSAI-nın 6 tədbirində iştirakımız baş tutmuşdur.

Hesabat ili 2018–2020-ci illəri əhatə edən Strateji İnkişaf Planının ilk icra ili olmuşdur. 5 məqsədi, 32 alt məqsədi özündə birləşdirən bu planda tədbirlər müasir dövrün çağırışlarına uyğun şəkildə müəyyən edilmişdir. Buraya audit funksiyasının gücləndirilməsi, o cümlədən informasiya texnologiyalarının tətbiqi, beynəlxalq standartların öyrənilməsi, kadr potensialının gücləndirilməsi, hazırlanan rəylərin məzmun və keyfiyyət baxımdan təkmilləşdirilməsi və sair bu kimi tədbirlər aid edilmişdir. Hesabat ilində hər bir istiqamət üzrə müxtəlif və çoxsaylı tədbirlər həyata keçirilmişdir.

Hörmətli millət vəkilləri, Hesablama Palatası fəaliyyətini tənzimləyən yeni qanunun qəbul edilməsi ilə inkişafının yeni mərhələsinə qədəm qoymuşdur. 2019-cu ildə dövlət vəsaitlərinin səmərəli və nəticəli istifadəsinin təmin edilməsi, maliyyə inzibatçılığının gücləndirilməsi, hesabatlılığın möhkəmləndirilməsi məqsədi ilə beynəlxalq təcrübəyə uyğun yanaşmaların tətbiq olunmasına və adekvat nəzarət mexanizmlərinin qurulmasına çalışacağıq. Məqsədimiz Azərbaycan Respublikasının iqtisadi gücünün daha da artırılması istiqamətində ölkə başçısı cənab İlham Əliyevin həyata keçirdiyi kursun təmin edilməsində iştirak payımızı genişləndirmək və cənab Prezidentin bizə olan etimadını doğrultmaqdır. 2019-cu il üçün iş planı da yeni qanunun verdiyi səlahiyyətlər çərçivəsində məhz həmin məqsədlərin icra edilməsinə yönəldilmiş tədbirləri əhatə edir.

Hörmətli millət vəkilləri, 2018-ci ildə fəaliyyətlə bağlı Hesablama Palatasının hesabatının kollegiya tərəfindən təsdiq edildiyini və sizlərə müvafiq qaydada təqdim edildiyini diqqətinizə çatdırmaqla, hesabatın nəzərə alınmasını xahiş edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Əyləşin. İndi sözü veririk İqti-

sadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadəyə. Ancaq etiraz yoxdursa, müzakirələri 5 dəqiqəyə keçirək.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Oldu. Sağ olun.

**Z.Səmədzadə,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri! Hörmətli Vüqar müəllim Hesablama Palatasının 2018-ci ildə fəaliyyəti barədə kifayət qədər məlumat verdi. Millət vəkillərinə bildirmək istəyirəm ki, Hesablama Palatasının fəaliyyəti barədə hesabat Milli Məclisin komitəsində ətraflı müzakirə edilmiş, çox faydalı fikirlər söylənilmiş, hesabat birmənalı şəkildə müsbət qiymətləndirilmişdir.

Hesabat 2018-ci il üçün iş planı ilə nəzərdə tutulmuş və həyata keçirilmiş nəzarət tədbirlərini, həmçinin Hesablama Palatasının hesabat ilində cari fəaliyyəti ilə bağlı məlumatları özündə əks etdirir. Hesablama Palatasının 2018-ci ildə fəaliyyətinə dair hesabatın strukturunda əvvəlki illərdən fərqli olaraq bir sıra müsbət nəticələr verəcək təkmilləşdirmələr həyata keçirilmişdir. Belə ki, Hesablama Palatasının fəaliyyəti daha ətraflı əks etdirilmiş, fəaliyyətin bütün istiqamətləri üzrə nəticələrə dair xülasə də əlavə olunmuşdur. Hesabatın ümumi məlumatlar bölməsində Hesablama Palatasının fəaliyyətinin təşkili, qüvvədə olan qanunvericiliklə müəyyən edilmiş vəzifələrinin, həmçinin Hesablama Palatasının 2018–2020-ci illərdə Strateji İnkişaf Planında və Avropa İttifaqının maliyyə dəstəyi ilə həyata keçirilən beynəlxalq layihədə nəzərdə tutulmuş tədbirlərin 2018-ci ildə icra vəziyyəti barədə maraqlı məlumatlar daxil edilmişdir.

Hesabatda 2018-ci ildə dövlət büdcəsinin, həmçinin büd-

cədənkənar dövlət fondlarının gəlir və xərcləri, dövlət zəmanəti ilə alınmış kreditlər, maliyyə-təsərrüfat fəaliyyətini əhatə edən auditlərin nəticələri nöqsanlar üzrə təsnifləşdirilmiş, ötən illərdə başa çatdırılmış auditlər üzrə hesabat ilində yerinə yetirilmiş tədbirlərin nəticələri ilə bağlı məlumatlar da öz əksini tapmışdır. Hesablama Palatası kənar dövlət maliyyə nəzarət orqanı kimi dövlət vəsaitlərinin qanunauyğun, nəticəli, səmərəli və qənaətli istifadəsi vəziyyətinin daha da yaxşılaşdırılması, dövlət maliyyə inzibatçılığı sistemində şəffaflığın yüksəldilməsi və hesabatlılığın artırılması istiqamətində konkret əməli tədbirlər görmüşdür. 2018-ci ildə Palata tərəfindən dövlət vəsaitlərinin istifadəsi ilə bağlı həyata keçirilən 48 nəzarət tədbiri, dövlət satınalmaları üzrə fəaliyyət audit edilmişdir. 20 nəzarət tədbiri isə dövlət investisiyalarını əhatə etmişdir. Müsbət hal kimi müəyyən edilmiş nöqsanlar üzrə statistik məlumatların doğru və aydın şəkildə bir cədvəldə öz əksini tapmasını xüsusi qeyd etmək istərdim. Aşkar edilmiş nöqsanlar arasında büdcə, dövlət satınalmaları, mühasibat uçotu və hesabatlıq, habelə sosial təminat, sosial müdafiə ilə bağlı qanunvericiliyin tələblərinin pozulmasına dair nöqsanları da xüsusilə qeyd etmək istərdik. Belə ki, Palata 2018-ci ildə nöqsanlarla əlaqədar aparılmış nəzarət tədbirləri nəticəsində 90 milyon manat məbləğində vəsaitin səmərəsiz xərclərini aşkara çıxarmışdır. Dövlət büdcəsində bərpa edilmiş vəsaitlərin yaranma mənbələri üzrə strukturda vergi, rüsum və sair ödəmələr 38,5, digər istiqamətlər üzrə 19,8, tikinti xərcləri üzrə 17,4, satınalmalar üzrə 10,7 faiz təşkil etmişdir. Ümumiyyətlə, qeyd etmək istərdim ki, hesabat ilində bərpa edilmiş vəsaitlərin 33,5 faizi büdcə qanunvericiliyinin pozulması ilə bağlı nöqsanlar səbəbindən olmuşdur.

Hesablama Palatası haqlı olaraq mühasibat uçotunun təkmilləşdirilməsi istiqamətində tədbirlərin gücləndirilmə-

sini zəruri hesab edir və bir sıra maraqlı təkliflərlə çıxış edir. Hesabatda qeyd edilir ki, dövlət maliyyə nəzarəti obyektləri tərəfindən milli mühasibat uçotu standartlarına keçid təmin olunmamış və ya uçot, hesabat işləri büdcə təşkilatları üçün milli mühasibat uçotu standartlarının tələbinə uyğun olmamış, uçotun aparılmasında yeni hesablar planı tətbiq edilməmişdir.

Ümumiyyətlə, hörmətli cənab Sədr, hörmətli millət vəkilləri, Azərbaycan Respublikasının iqtisadiyyatında şəffaflığın artırılması ilə əlaqədar görülən tədbirlər ilk növbədə mühasibat uçotunun daha da təkmilləşdirilməsini zəruri edir ki, bu məsələdə də Hesablama Palatasının mövqeyi təqdirəlayiqdir. Hesablama Palatası ötən il də nəzarət tədbirləri ilə dövlət büdcəsinin funksional təsnifatı üzrə demək olar ki, bütün bölmələri əhatə etmişdir. Belə ki, əhatə olunmayan yalnız yanacaq və enerji xərcləri ilə bağlı bölmədir ki, həmin bölmənin də ümumi büdcədə xüsusi çəkisi 1 faizdən azdır. Göründüyü kimi, 2018-ci il Hesablama Palatasının nəzarət fəaliyyəti xərclərin istiqamətlər üzrə əhatəliliyinin təmin edilməsinə yönəlmişdir.

Hesabatda Palatanın qərar və təqdimatlarının qurumlar tərəfindən icra vəziyyəti ilə bağlı məlumatlar ayrı-ayrılıqda daxil edilmişdir. Belə yanaşma, şübhəsiz ki, şəffaflıq və hesabatlılıq prinsiplərinin təmin edilməsinə xidmət edir və Palata da fəaliyyətində bu məqsədlərinə nail olmuşdur. Hesabat üzrə təqdim edilmiş məlumatlar göstərir ki, ümumilikdə büdcə vəsaitlərinin icrasında müsbət meyllər olsa da, hələ də maliyyə inzibatçılığının gücləndirilməsinə ehtiyac vardır. Hesabat ilində Palata dövlət büdcəsi, Dövlət Sosial Müdafiə Fondu və İşsizlikdən Sığorta Fondunun büdcələrinin layihəsinə, dövlət büdcəsinin icrasına rəyini təqdim etmişdir. Qeyd edək ki, Dövlət

Sosial Müdafiə Fondunun və İşsizlikdən Sığorta Fondunun büdcələrinin icrasına rəyin təqdim edilməməsi qanunvericilikdə olan boşluqlarla əlaqədardır.

Palatanın korrupsiyaya qarşı mübarizə istiqamətində prokurorluq orqanları ilə əməkdaşlığı daha sıx olmuşdur. Nəzarət tədbirləri üzrə müəyyən edilmiş nöqsanlar əsasında müvafiq məlumatlar Baş Prokurorluğa təqdim edilmiş və bununla bağlı müvafiq tədbirlər görülmüşdür.

Palata şəffaflığın təmin olunması istiqamətində təqdirəlayiq fəaliyyət göstərir. Rəsmi internet səhifəsinin məlumatlılığı bütün rəylərin, hesabatların, həmçinin hazırlanan rüblük bülletenlərin tam mətninin bu səhifədə yerləşdirilməsi onu qeyd etməyə əsas verir. Həmçinin auditlərin nəticələri ilə bağlı məlumat bölməsi də daim yenilənir. Qeyd olunduğu kimi, cari hesabata xülasə bölməsi də əlavə edilmişdir. Bu ictimaiyyətin bütün təbəqələrinin məlumatlandırılmasında vacib addımdır. Bütün bu deyilənləri nəzərə alaraq, mən millət vəkillərindən xahiş edərdim ki, Hesablama Palatasının 2018-ci ildə fəaliyyəti haqqında hesabata müsbət münasibət bildirsinlər. Bir daha mən Hesablama Palatasının fəaliyyətini müsbət qiymətləndirirəm və onun əməkdaşlarına da Azərbaycan iqtisadiyyatında şəffaflığın artırılması, dövlət büdcə vəsaitlərindən səmərəli istifadə edilməsi istiqamətində gördükləri tədbirlərdə uğurlar arzulayıram. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Müzakirələrə başlayırıq. Buyurun, Fəzail Ağamalı.

**F.Ağamalı**. Təşəkkür edirəm. Hörmətli Sədr, hörmətli millət vəkilləri, media təmsilçiləri. Hesablama Palatasının 2018-ci il hesabatını mən müsbət qiymətləndirirəm. Hesabat ilində Palata qanunvericilik çərçivəsində öz işini daha da təkmilləşdirmiş, dövlət büdcəsinin icrası zamanı yol

verilən nöqsanların təsnifatı aparılmış, Palatanın fəaliyyəti, şəffaflıq, demək olar ki, təmin olunmuşdur. Əlbəttə ki, onların fəaliyyətinin müsbət tərəflərini qeyd etməklə yanaşı, bir sıra məqamları da diqqətinizə çatdırmaq istərdim.

Mən düşünürəm ki, Hesablama Palatası öz işini elə yüksək səviyyədə qurmalı, fəaliyyətini elə təmin etməlidir ki, büdcədən maliyyələşən qurumlar tərəfindən büdcə vəsaitinin dağıdılmasına, onun mənimsənilməsinə imkan verilməsin. Hələ də belə bir məntiqi başa düşə bilmirəm, necə ola bilir ki, dəfələrlə Milli Məclis səviyyəsində bu məsələ müzakirə olunur, təqdim edilmiş hesabatda ayrı-ayrı qurumların yol vermiş olduğu nöqsanlar, mənimsədiyi pullar göstərilir, onların geri qaytarılması ilə bağlı fikirlər söylənilir, – eyni zamanda, bu hesabatda da bu öz əksini tapmışdır, – lakin bu ənənəyə son qoyulmamışdır və son qoyulmur. Necə etmək lazımdır ki, dövlət büdcəsinə bu cür korporativ, neqativ yanaşmalar baş verməsin və buna imkan verilməsin. Bunun üçün mənə elə gəlir ki, Hesablama Palatası hər şeydən əvvəl öz işini daha yüksək səviyyədə qurmaqla bərabər müstəqilliyini təmin etməlidir. Elə etmək lazımdır ki, Hesablama Palatasının fəaliyyətinə bu və ya digər qurumların təsiri sıfıra endirilsin. Mən düşünürəm ki, buna ciddi ehtiyac var.

Digər tərəfdən, Hesablama Palatasının vermiş olduğu layihədə bir sıra sahələr üzrə nöqsanlar göstərilmiş, çıxarılan nəticə o qədər də, mən deyərdim, yaxşı deyil. Məsələn Dövlət Sosial Müdafiə Fondunun hərbi qulluqçular, Şəmkir, Gədəbəy, Sabirabad rayonları üzrə təsnifatından məlum olur ki, onlar yardım və müavinətlərə görə ayrılan pulları mənimsəmişlər və həmin pullar Hesablama Palatası tərəfindən geri qaytarılmışdır. Eyni zamanda, Bakı şəhər Mənzil-kommunal Təsərrüfatı Departamenti, Bakı Yaşıl-

laşdırma Təsərrüfat Birliyi də eyni taleyi yaşamış, pullar geri qaytarılmışdır, lakin bunların rəhbərliyinə hesabatdan da göründüyü kimi, gözün üstə qaşın var, deyən olmamışdır.

Bu və ya digər qurumların rəhbərləri ancaq vəzifədən çıxarıldıqdan sonra onların var-dövləti, daha geniş xarakter daşıyan biznes imkanı barədə məlumatlar mətbuatda yer alır, bunlar bəlli olur. Mən düşünürəm, elə etmək lazımdır ki, Hesablama Palatası bütün bunları zamanında üzə çıxarsın, araşdırsın və hamısını hüquq mühafizə orqanlarına təqdim etsin. Çox təəssüf edirəm və düşünürəm ki, bu vəsaitlərin geri qaytarılması ilə iş bitməli deyil, bu sona qədər çatdırılmalıdır. Büdcəni mənimsəyənlər, büdcə pulunu oğurlayanlar Azərbaycan qanunları qarşısında ciddi şəkildə cavab verməlidirlər. Diqqətinizə görə təşəkkür edirəm.

## *Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini **Ziyafət Əsgərov** sədrlik edir*

**Sədrlik edən.** Sağ olun. İlham Məmmədov.

**İ.Məmmədov**. Sağ olun. Hörmətli Ziyafət müəllim, hörmətli millət vəkilləri. 2018-ci il ölkəmizin tarixində xüsusilə əlamətdar bir il kimi yadda qalmışdır. İlk növbədə xalqımız məhz bir il bundan əvvəl, aprel ayının 11-də bir daha ulu öndərimiz Heydər Əliyev ideyalarının təntənəsinə, ölkənin xoşbəxt və işıqlı gələcəyinə, cənab İlham Əliyevə səs verərək, növbəti dəfə özünün Prezidentini seçmişdir.

Keçən ilə, ümumilikdə isə cənab Prezidentin son 15 illik fəaliyyətinə nəzər salsaq, nə görürük? Güclü iqtisadiyyata malik, iqtisadi inkişafına görə heç bir beynəlxalq maliyyə qurumundan asılı olmayan, bəzi inkişaf etmiş ölkələrin 10 illər boyu keçdiyi inkişaf yolunu sürətlə

addımlayaraq dünyaya öz inkişaf modelini təqdim edən bir dövlət. Təbii ki, bu gücə, bu iradəyə söykənərək yaranmış maliyyə sabitliyi bu illər ərzində ölkəmizin bütün sahələr üzrə inkişafını təmin etmişdir. Maliyyə sektoru da bir institusional qurum olaraq formalaşmış və iqtisadi inkişafı əks etdirən bir quruma çevrilmişdir. Maliyyə sahəsində dəqiq uçotun, maliyyə nəzarəti və intizamın olması bütün bu işlərin səmərəli həyata keçirilməsini şərtləndirən ən vacib məsələlərdən biridir. Məhz bu işlərdə Milli Məclisin ali audit qurumu olan Hesablama Palatasının fəaliyyətini xüsusi qeyd etmək istəyirəm.

Bilirsiniz, dövlətimizin büdcəsi məhz səlahiyyət verərək seçdiyi biz millət vəkillərinin iştirakı ilə Milli Məclisdə tərtib olunur və bu büdcənin xərclənməsi, xalqın rifahına doğru istiqamətlənməsi də ayrı-ayrı qurumların parlament qarşısında hesabatında öz əksini tapır. Ancaq hesab edirəm ki, Milli Məclisdə onun ali audit qurumunun verdiyi hesabat bizim üçün çox önəmlidir. Bunun üçün də Hesablama Palatasının səmərəli fəaliyyəti bizim üçün xüsusilə arzuolunandır və hər il biz bu fəaliyyətin daha da müasir tələblər səviyyəsində aparıldığının şahidi oluruq. Yəni, doğrudan da, builki məruzə ilə tanış olarkən görürük ki, Palata ildən-ilə işini təkmilləşdirərək, maliyyə nizam-intizamının artıq bir ali məqsəd olduğunu həm nəzərə çapdırmış, həm də bunun artıq bir pozulmaz qanuni norma olduğunu aşılaya bilmişdir.

Hesablama Palatasının fəaliyyətini tənzimləyən yeni qanunun qəbul edilməsi, hesab edirəm ki, Milli Məclisin Palatanın işini dünyanın müasir çağırışlarına uyğun qurmasına kömək etmişdir. Bütün bunlar Hesablama Palatasının maliyyə inzibatçılığının gücləndirilməsində, beynəlxalq təcrübəyə uyğun yanaşmaların daha geniş tətbiqində

və adekvat nəzarət mexanizminin qurulmasındakı işinə kömək etmiş olacaqdır. Biz Hesablama Palatası sədrinin bugünkü məruzəsi ilə tanışlığımızdan, eləcə də hörmətli Vüqar Gülməmədovun mətbuata da verdiyi açıqlamalardan aydın görürük ki, Hesablama Palatası haqqında yeni qanunun qəbul edilməsi ilə əlaqədar olaraq həyata keçirdiyi kənar dövlət maliyyə nəzarətinin əhatə dairəsi daha da genişlənmişdir. Belə ki, hesabat dövründə dövlət büdcəsinə cəlb edilmiş daxili və xarici kreditlər, həmçinin dövlət mülkiyyətində olan müəssisələrin vəsaitləri nəzarətə cəlb olunmuşdur. Builki hesabatın da, hesab edirəm ki, ən əsas yeniliyi məhz ilk dəfə olaraq dövlət borcunun formalaşması və ona xidmət edilməsi üzrə xərclərə nəzarət olunmasıdır. Bu nəzarət nəticəsində Palata müəyyən etmişdir ki, dövlət borcunun formalaşması və ona xidmət edilməsi üzrə uyğunluq auditi aparılarkən bir sıra nöqsanlar aşkar edilmişdir.

Əlbəttə ki, səmərəlilik, qənaətcillik, rasionallıq, normativ hüquqi aktlara riayət etmək və maarifləndirmək işi Hesablama Palatasının əsas iş prinsipləri olduğundan, hesab edirəm, bundan sonrakı fəaliyyətində də büdcədənkənar vəsaitlərin daha geniş əhatə olunması və istiqaməti üzrə gördüyü işlərin səmərəliyinin artırılması üçün daha mükəmməl addımlar atacaqdır. Əlbəttə, burada statistik rəqəmlər səsləndi, hansı sahədə yoxlamalar aparılmışdır, dövlət büdcəsinə nə qədər qənaət olunması üçün addımlar atılmışdır. Hesabatda da vurğulanır ki, yeni qanunun qəbul olunması ilə əlaqədar Hesablama Palatasının fəaliyyətinin əhatə dairəsinin genişlənməsi, təbi ki, Palata qarşısında peşəkarlığın, bu sahədə işin gücləndirilməsi üçün yeni treninqlərin, monitorinqlərin keçirilməsini, hesab edirəm, bir vasitə kimi ortaya qoymuşdur. Yəqin ki, növbəti ilin

büdcəsində bu işin daha geniş aparılması üçün Hesablama Palatasına bu istiqamətdə fəaliyyətini gücləndirməkdə köməklik etmiş olacaqdır. Əlbəttə ki, maliyyə nizam-intizamı ölkəmizin gələcək inkişafının formalaşmasına kömək edən bir amildir. Fəaliyyətində uğurlar arzu edirəm və hesab edirəm ki...

**Sədrlik edən.** Sağ olun. Fazil Mustafa.

**F.Mustafa**. Hörmətli Ziyafət müəllim, hörmətli millət vəkilləri. Hesablama Palatasının bu dəfə tərtib olunan hesabatı kifayət qədər anlaşılan, oxunaqlı və üslub baxımından da çox yeni bir hesabat formatıdır. Şəxsən mən əvvəlki hesabatlardakı çətinliklərlə çox da qarşılaşmadım. Maddələr üzrə məqsədlərin dəqiq göstərilməsi, qanunvericiliyə istinad edilməsi kimi məsələlər burada çox aydın verilibdir. Ona görə də bunu çox təqdirlə qarşılayıram. Təbii ki, hesabatlılıq və şəffaflığın gücləndirilməsi istiqamətində fəaliyyət bölməsi də ilk dəfə olaraq daxil edilib. Amma bəri başdan iradımı bildirim ki, bu gün ölkədə Novruz bayramından sonra ölkə Prezidentinin çıxışında əks olunduğu kimi, ciddi islahatlar ili elan olunduğunu nəzərə alsaq, Hesablama Palatasının bu sənədində islahatları müəyyən dərəcədə irəli apara biləcək bir sıra müddəaların olmasını istərdim və bölmələrin bir çoxunda bunlara rast gəlmədim. Çünki burada Hesablama Palatasının rəyi çox önəmlidir.

Mən hesab edirəm, islahatlar aparmaq niyyətimiz, həqiqətən də, ardıcıldırsa, Hesablama Palatasının rəyi kifayət edər ki, burada olan məsələlərin üzərinə gəlib aydınlaşdırma aparaq. Burada, diqqət edirsinizsə, xeyli maddələr var ki, düzdür, Hesablama Palatası bunları büdcə ilə, əmlakla bağlı məsələlərdə nöqsan olaraq göstərir. Bu ifadə, sadəcə, orta məktəbdə, uşaq bağçasında daha çox işlənir.

Dövlət idarəetməsində ənənəvi olaraq bunu nöqsan adlandırmaq, məncə, doğru deyil. Dövlət büdcəsindən vəsait mənimsənilirsə, bu, cinayətdir. Hər hansı şəkildə buna yumşaldıcı ad qoymaqdan artıq imtina eləməyi bacarmalıyıq. Çünki əksər sahələrdə biz bunun şahidi oluruq və xüsusilə də burada qeyd olunur, bütün audit formasında aparılmış nəzarət tədbirləri 9,2 milyard manat vəsaiti əhatə edib, amma diqqət eləyəndə görürük ki, vergi ödəyiciləri ilə bağlı ciddi problemlər var, borcların bağlanmasına yönəlməsi üçün siyahıya alınmış əmlaklar bir qayda olaraq mövcud olmur, – əmlak mövcud olmadan necə bunu tərtib edə bilirlər, – sonra satınalmalarla bağlı ciddi problemlər var.

Satınalmalar, tender komissiyalarının formalaşması, ümumiyyətlə, qapalı formada həyata keçirilir və indiyə qədər hansı tenderin necə həyata keçirildiyi barədə bilgilər verilmir. Satınalmaların planlaşdırılmasında səmərəliliyi, dövlət ehtiyacları üçün malların miqdar və həcminin tələbata, yaxud da hansı zərurətə əsaslandığı göstərilmir. Dövlət satınalmalarında maraqların ziddiyyəti daha qabarıq əks olunur. Demək olar ki, bir-birindən təşkilati, maliyyə və hüquqi asılılığı olan mal götürən podratçılar əksər vaxtlarda həmin təşkilat tərəfindən satınalma prosesində iştirak edirlər. Yəni bunlar hamısı sonda diqqəti nəyə çəkir? 76 tender fəaliyyətinin qanunvericiliyin tələblərinə uyğun təmin edilmədiyi, 49 halda ehtimal olunan qiymətin müəyyən qaydada müəyyən olunmadığı göstərilir. Bunlar aşkar olunan məsələlərdir. Amma hansı tenderin nəticələri ləğv olub? Hansı tenderin səmərəsizliyinə görə yenidən o tenderə girə biləcək təşkilatların, hüquqi şəxslərin hər hansı şəkildə məhdudlaşdırılması ilə bağlı qərar qəbul olunub? Bunun nəticəsi barədə hər hansı məlumat əldə

etmək mümkün deyil. Digər tərəfdən, satınalmalar üzrə 355 halda 25 milyard manat məbləğində vəsaitin satınalma keçirmədən müqavilələrə bölünərək icra olunması ciddi bir cinayət faktıdır.

Yəni bunların hamısını biz araşdırdıqda görürük ki, təbii, Hesablama Palatasının təsir imkanları qanunvericilik baxımından böyükdür. Amma reallıq baxımından biz də anlayırıq ki, çox yerlərə təsir etmək imkanı yoxdur. Amma biz, doğrudan da, islahat ilində əgər Hesablama Palatasının bu məsələ üzərində öncüllük etməsini təmin edə bilməsək, bu islahatların da taleyi ilə bağlı, həqiqətən də, narahatçılıq keçirməyə indidən əsas yarana bilər. Dövlət büdcəsinə qaytarılan vəsait də cəmi 1,6 milyard manatdır ki, bu...

**Sədrlik edən.** Sağ olun. Əflatun Amaşov.

**Ə.Amaşov.** Hörmətli Ziyafət müəllim, hörmətli həmkarlar, əziz media nümayəndələri. Azərbaycan Respublikası Hesablama Palatasının 2018-ci ildəki fəaliyyəti haqqında hesabatı ilə mən də tanış oldum. Hesabat əvvəlki illərdəkindən fərqlidir. Kifayət qədər genişdir, əhatəlidir. Əhatəliyi iki aspektdən qiymətləndirmək olar. Birincisi, qurumun fəaliyyətində bilavasitə maliyyə nəzarəti funksiyasını vurğulamaqla bağlıdır. Başqa bir cəhət Palatanın dövlət qurumu kimi gördüyü işlərdir. Əlbəttə, bizim üçün daha vacib olan maliyyə nəzarətidir. Mən əvvəlki çıxışların birində bildirmişdim ki, ölkəmizdə, belə demək mümkündürsə, maliyyə şokları yaşanmamalıdır. Necə ki, vaxtı ilə Beynəlxalq Bank ilə bağlı yaşanmışdır.

Bu gün bu hesabatla tanış olanda bir daha inanmaq istəyirəm ki, acı yaxın keçmiş təkrarlanmayacaq. Çünki Hesablama Palatası işinə məsuliyyətlə yanaşır. Qurum dövlət vəsaitinin qanunauyğun, səmərəli istifadəsinə nəza-

rət edir. Fəallığın, şəffaflığın yüksəlməsinə, hesabatlılığın artırılmasına dəstək olur. Mən sadalamaq istəmirəm, düşünürəm ki, Palata ümumiyyətlə, nöqsanları və çatışmazlığı da yetərincə ortaya qoya bilir.

Daha bir müsbət məqam ondan ibarətdir ki, Hesablama Palatası öz fəaliyyətində qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsinə və tətbiqinə də xüsusi önəm verir. Bu o deməkdir ki, qurum fəaliyyətini təkmilləşdirir, əldə olunan nəticələrlə kifayətlənmir. Onun beynəlxalq əməkdaşlıq diapazonunun genişliyi diqqəti daha da cəlb edir.

Sonunda məni narahat edən bir məqama da toxunmaq istərdim. Artıq neçə ildir ki, Palatanın hesabatını diqqətlə izləyirəm. Palata hər dəfə öz hesabatında çoxsaylı nöqsanlar aşkarlayır. Çox vacib təkliflər irəli sürür. Təəssüf ki, həmin dəyərli təkliflər aidiyyəti qurumlar tərəfindən nəzərə alınmır. Belə olsaydı, Palata növbəti hesabatında bir daha həmin çatışmazlıqları qeydə almaz, məlum təklifləri təkrarən hesabata daxil etməzdi. Bu da məsuliyyət hissi ilə bağlıdır. Düşünməliyik, necə edək ki, bu məsuliyyətsizlik aradan qalxsın. Qurumlar hesabatda göstərilən səhvlərini vaxtında duzəltsinlər. Bunu edə bilməsək, inanmıram ki, Palatanın dərin araşdırmaları və təhlilləri, təklifləri öz faydasını tam şəkildə verə biləcəkdir. Çıxışımın əvvəlində söylədiklərim Hesablama Palatası 2018-ci ildəki fəaliyyətinə dair hesabatını müsbət qiymətləndirmək üçün əsas verir. Arzu edirəm ki, qarşıdakı illərdə də qurumun gördüyü işləri müsbət qiymətləndirmək üçün əsaslar tapa bilək. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Vahid Əhmədov.

**V.Əhmədov.** Çox sağ olun. Hörmətli Ziyafət müəllim, hörmətli millət vəkilləri, hörmətli mətbuat. Biz komitənin iclasında geniş müzakirə etmişik və ilk dəfə olaraq Hesab-

lama Palatasının sədri bizə aydın, geniş məlumat verdi. Mən belə hesab edirəm, bu, Hesablama Palatasının son dövrlər atdığı ən müsbət addımlardan biridir.

2018-ci ildə Hesablama Palatası 60-a yaxın audit keçirib və 53 audit, 5 təhlil formasında, harada isə 126 kənar dövlət müəssisəsini əhatə edib, yoxlamalar aparıb. Dövlət büdcəsinin təxminən 9,2 milyard manat vəsaitini əhatə edib ki, burada da, əsasən, xərc hissəsini, yəni 14 maddədən 13-ünü əhatə edibdir. Yəni Hesablama Palatasının əsas vəzifəsi, əlbəttə, şəffaflığın təmin edilməsi və hesabatlılığın müəyyən edilməsidir. 2018-ci ildə aparılan yoxlamalarda, fikir verirsinizsə, 714 nöqsan aşkar edilib. Mən hesab edirəm ki, əlbəttə, bu, böyük rəqəmdir. Amma biz nöqsanların istiqamətinə baxsaq, fikir veririk ki, əsasən, 4 sahədə çox ciddi problemlər var. Bunlar dövlət zəmanəti ilə verilmiş kreditlərin icrası ilə əlaqədar 24 faiz, dövlət satınalmaları 13 faiz, xüsusilə mühasibat uçotu və hesabatlılıqla 32 faiz, büdcə gəlirlərinin hesablanması, yığılması ilə bağlı 12 faizdir.

Əlbəttə, burada bizi narahat edən məsələlər var. Bu məsələlər ondan ibarətdir ki, bu sahə üzrə əvvəlki hesabatlarda da həmişə müəyyən nöqsanlar aşkar edilib. Mən, ümumiyyətlə, tövsiyə edərdim ki, Hesablama Palatası bu sahələr üzrə daha ciddi yoxlamalar aparsın və daha sərt tədbirlər həyata keçirsin. Çünki əgər bu sahələr üzrə nöqsanlar ilbəil davam edirsə, deməli bizim gördüyümüz tədbirlər lazımi səviyyədə deyil. Ümumi götürəndə Hesablama Palatası yoxlamalar aparır, əlbəttə, müəyyən işlər görülür, nazirliklərə, hüquq mühafizə orqanlarına sənədlər göndərilir. Əgər fikir verirsinizsə, ümumiyyətlə, dövlət büdcəsinə daxil olmada 22 milyon manat, digər qurumlar üzrə bir yerdə 23 milyon manat vəsait daxil olub. Əlbəttə,

bu, əvvəlki illərə nisbətən artıqdır. Əgər 2015-ci ildə cəmi 10 milyon manat vəsait daxil olmuşdusa, hazırda bu rəqəm 23 milyon manata çatmışdır. Əlbəttə, bu rəqəmi artırmaq üzərində də, mən hesab edirəm ki, Hesablama Palatası fikirləşməlidir və bu rəqəm artırılmalıdır. Ümumi götürəndə, ən çox nöqsanlar Maliyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi və Vergilər nazirlikləri ilə əlaqədardır. Yəni bu nazirliklər də nəticə çıxarıb, orada olan nöqsanları aradan qaldırmalıdırlar. Mən Hesablama Palatasına komitənin iclasında da bir neçə təklif verdim. İndi də o təklifləri səsləndirmək istəyirəm.

Birincisi, xahiş edərdim ki, hər il Hesablama Palatası Dövlət Neft Fondunun xərci, gəlirləri ilə əlaqədar bizə geniş hesabat versin. Çünki dövrü mətbuatda Dövlət Neft Fondunun yerləşdirdiyi məbləğlərin çox az gəlirlər gətirdiyi, səmərəliliyin aşağı olması il əlaqədar çox ciddi yazılar gedir. İkinci, dövlət satınalmaları ilə əlaqədar qaranlıq məsələlərə artıq son qoymaq lazımdır, yəni tenderlərin keçirilməsi, tenderlərdə kimlərin iştirak etməsi və sair, bu məsələ də öz həllini tapmalıdır.

Biz tikinti ilə əlaqədar dövlət büdcəsindən 2019-cu ildə 7 milyard manata yaxın əsaslı vəsait ayırmışıq. Mən Hesablama Palatasının sədri cənab Vüqar Gülməmmədovdan xahiş edərdim ki, dövlət auditorları 2019-cu ilin dövlət büdcəsindən ayrılmış 7 milyard vəsaiti nəzarətə götürsünlər və onun xərclənməsi ilə əlaqədar bizə 2020-ci ildə məlumat versinlər.

Debitor borcları ilə əlaqədar, düzdür, müəyyən azalmalar var, amma müəyyən sahələrdə artımlar da var, yəni bu sahədə müəyyən işlər getsə də, bunu gücləndirmək lazımdır. Ünvanlı sosial yardımla əlaqədar şikayətlər əvvəllər də olub, indi də davam etməkdədir.

Mən sonda bir məsələyə də toxunmaq istəyirəm. Kənd təsərrüfatının əmlakının sığortalanması ilə əlaqədar olaraq. Hesabatda bu öz əksini tapıb. Biz də mütəmadi olaraq o məsələyə toxunmuşuq. Artıq bu il, mənə elə gəlir ki, kənd təsərrüfatının sığortalanması ilə əlaqədar qanun layihəsini qəbul etməyin vaxtı çatıb. Çünki sığorta ilə əlaqədar çoxlu boşluqlar var. Kənd təsərrüfatının inkişafına dövlət tərəfindən çox böyük dəstək verilib. Ona görə də biz kənd təsərrüfatının əmlakının sığortalanması haqqında qanun qəbul etməliyik. Ümumi götürəndə mən müsbət yanaşıram, rəyi də müsbət qiymətləndirirəm. Sağ olun.

*Azərbaycan Respublikası Milli Məclisinin Sədri* ***Oqtay Əsədov*** *sədrlik edir*

**Sədrlik edən.** Sağ olun. Əli Məsimli.

**Ə.Məsimli.** Çox sağ olun, cənab Sədr. Hesablama Palatasının fəaliyyəti haqqında deyilən bütün müsbət məqamlara qoşuluram. Eyni zamanda, qeyd etmək istəyirəm ki, Hesablama Palatasının bu hesabatı yeni qanun əsasında hazırladığını nəzərə alsaq, – "Hesablama Palatası haqqında" yeni Qanun keçən ilin sentyabr ayında qəbul olunub, – deməli, Hesablama Palatasının yeni qanun əsasında bu cür mükəmməl bir hesabat hazırlamağa cəmi 3 ay vaxtı olub. Elə bu cümlə, hesab edirəm, Hesablama Palatasının 2018-ci ildəki fəaliyyətinin kifayət qədər geniş, əhatəli və mükəmməl olduğunu açıq formada göstərir.

Hesablama Palatası özündən asılı olan işlərin xeyli hissəsini görüb, ona görə də çıxışımızda biz daha çox Hesablama Palatasından asılı olmayan, yaxud da az asılı olan məqamlara toxunmaq istəyərdik.

İlk növbədə, nəzarət mexanizmi vasitəsi ilə həyata keçirilən tədbirləri müsbət qiymətləndiririk. Amma kəmiyyət nöqteyi-nəzərindən məsələni, dinamikanı müsbət qiymətləndirsək də, nəticəlilik nöqteyi-nəzərdən bu məsələyə geniş diqqət ayrılmasını vacib hesab edirik. Ona görə ki, nəzarət mexanizmi vasitəsi ilə büdcəyə bərpa olunan bütün vəsaitlər üst-üstə 23,2 milyon manat, üstəgəl harada isə əlavə 7 milyon manat olub. Bunlar nəzarətə cəlb olunan 9,3 milyard manatlıq vəsaitin cəmi 0,3 faizini təşkil edir. Amma geniş imkanlar var ki, həmin vəsait bundan 10 dəfə, bəlkə də 50 dəfə çox olsun. Bax, bu məsələ təkcə Hesablama Palatasından asılı deyil, hesab edirəm ki, bu məsələnin həllini indi başlanan islahatların mühüm tərkib hissəsinə çevirmək lazımdır.

Hesablama Palatası həyata keçirdiyi tədbirlər nəticəsində xeyli nöqsanları araşdırır. Həmin nöqsanların bir hissəsi aradan qaldırılır. Amma burada məndən qabaq da çıxışlarda qeyd olunduğu kimi, təkrarən, illər boyu həmin nöqsanların xeyli hissəsinə heç bir fikir verilmir. Əgər nəzərə alsaq ki, Hesablama Palatası Azərbaycanda ali audit orqanıdır, bax, bu statusda olan bir qurumun çıxardığı qərarlara, yaxud da irəli sürdüyü təkliflərə biganə qalmaq məsələsinə xüsusi diqqət vermək və hesab edirəm, xüsusi dinləmələr və sair vasitəsi ilə çalışmaq lazımdır ki, məhz həmin qurumlar birbaşa cavab versinlər. İllər boyu ortaya qoyulan nöqsanları aradan qaldırmaq üçün niyə heç bir iş görmürlər? Bu nöqteyi-nəzərdən ilk növbədə hesab edirəm ki, bir tərəfdən Hesablama Palatasının aşkarladığı çatışmazlıqların aradan qaldırılması məsələsi islahatların tərkib hissəsinə çevrilməli, ikincisi isə nəzarət mexanizminin fəlsəfəsi əsaslı surətdə dəyişməlidir. Yəni nəzarət total şəkildə vətəndaşa yox, korrupsiyaya, məmur özbaşı-

nalığına, oturduğu kreslonu sərvətə konvertasiya edənlərə daha çox yönəlməlidir ki, həmin adamların 100 milyonlarla, milyardlarla vəsaiti mənimsəməsi işdən çıxandan sonra yox, bilavasitə vaxtında aşkarlansın. Əgər bu üsuldan, mexanizmdən istifadə edilsə, hesab edirəm ki, Hesablama Palatasının fəaliyyəti kifayət qədər artacaqdır. Hesablama Palatası Milli Məclisə ən yaxın bir qurum olduğuna görə onun müsbət işləri Milli Məclisin də imicinə çox müsbət təsir göstərəcək. Bax, bu nöqteyi-nəzərdən hesab edirəm ki, Hesablama Palatası ilə koordinasiya işlərinin həm Milli Məclis, həm aidiyyəti komitələr, həm də ictimai təşkilatlar səviyyəsində gücləndirilməsi daha vacibdir.

Hesablama Palatasının gördüyü işləri müsbət qiymətləndirməklə yanaşı, eyni zamanda, daha çox nöqsan, korrupsiya olan sahələrdə monitorinqlər, sosioloji sorğular keçirilməsinə, yoxlamaların aparılmasına diqqətin daha da artırılmasını vacib hesab edirik. Büdcə Məcəlləsinin, Dövlət maliyyə nəzarəti haqqında qanunun və bundan çıxan digər qanunların da qəbulunun sürətlənməsini vacib hesab edirik ki, Hesablama Palatasının manevr imkanları hüquqi bazaya əsaslansın. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Aydın Hüseynov.

**A.Hüseynov.** Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri, media nümayəndələri. Biz Hesablama Palatasının geniş hesabatını dinlədik, bu, eyni zamanda, komitədə də geniş müzakirə olunmuşdu. Hesablama Palatasının sədrinin geniş hesabatını, eyni zamanda, komitə sədri hörmətli Ziyad müəllimin də rəyini dinlədikdə belə qənaətə gəlirik ki, Palata hesabat dövrü ərzində qarşıya qoyduğu əsas məqsədə, yəni dövlət vəsaitinin qanunauyğun, nəticəli, səmərəli, qənaətlə istifadə edilməsinə, şəffaflığın

artırılmasına dəstək ola bilmişdir. Eyni zamanda, Palata fəaliyyətində qanunçuluq, peşəkarlıq, ictimaiyyətlə əlaqə və hesabatlılıq prinsiplərini daha da genişləndirmişdir və bu sahədə xeyli nailiyyətlər əldə etmişdir. Bütövlükdə Palatanın fəaliyyətini mən yüksək qiymətləndirirəm. Palatanın hesabatında və qarşıya qoyduğu əsas məqsədlərdən biri də ictimaiyyətlə əlaqə, hesabatlılıq və bayaq qeyd etdiyim kimi, eyni zamanda, peşəkarlıq prinsipləri olmuşdur ki, bu da cəmiyyət tərəfindən çox müsbət qarşılanır. Çünki Hesablama Palatası hər bir qurumda apardığı audit nəzarətindən sonra oradakı nöqsanlarla və eyni zamanda, tövsiyələr ilə bağlı ictimaiyyətə məlumat verir. Doğrudan da, Hesablama Palatasında bu gün yüksək peşəkar auditorlar var və ümumilikdə onların fəaliyyətini peşəkarlıq baxımından yüksək dəyərləndirmək olar.

Mən Palatanın fəaliyyəti ilə bağlı bəzi məqamları diqqətə çatdırmaq istəyirəm. Hesabatdan da göründüyü kimi, Hesablama Palatası tərəfindən 9 milyard 266 milyon vəsait auditlə əhatə olunmuşdur və bu, mənə elə gəlir ki, büdcə vəsaiti baxımından iri bir nəzarət sahəsidir. Eyni zamanda, Palata haqqında yeni qanun qəbul olundu və bu qanuna əsasən Palataya iki səlahiyyət artırıldı. Biri dövlət mülkiyyətində olan müəssisələrin vəsaitlərinin və ikincisi, beynəlxalq və yerli maliyyə təşkilatlarından cəlb olunan kreditlərin yoxlanılması. Bunun hər ikisi çox önəmli addımlardır. Biz hesabatdan da görürük ki, dövlət mülkiyyətində olan müəssisələrin ümumi yoxlamanın tərkibindəki vəsaiti 23,4 faiz, beynəlxalq və yerli maliyyə təşkilatlarından cəlb olunan kreditlərin ümumi yoxlamanın tərkibindəki vəsaiti isə 8,3 faiz təşkil edir.

İstərdim bərpa olunan vəsaitlərlə bağlı da öz fikirlərimi

çatdıram. Yəni biz geniş hesabat dinləmişik, burada əsas məqamlardan ikisini qeyd etmək istəyərəm. Bərpa olunan vəsaitlərin yaranma mənbələrinə baxarkən biz görürük ki, orada satınalmalar üzrə 10,7 faizdir və bu, satınalmalarla bağlı proseduraların pozulma hallarıdır. Tutaq ki, orada digər, hər hansı qanun çərçivəsindən kənar olan hallara da önəmli diqqət yetirilib. Diqqəti cəlb edən əsas amillərdən biri də, hesabatda da göstərilir, deməli, tələbatdan artıq malların alınmasıdır. Palata bu kimi halların qarşısının alınması ilə əlaqədar müəyyən tədbirlər həyata keçirir. Bu çox önəmli haldır. Digər tərəfdən, artıq gömrük rüsumlarının ödənilməsi ilə bağlı hesabatda da fikirlər səsləndiririk. Yəni nə mənada? Yerli istehsal olduğu, zərurət yaranmadığı halda xarici malların alınması həm artıq gömrük rüsumlarının xərclənməsinə gətirib çıxarır, həm də bunu bizim yerli məhsulumuzun öz bazarlarımızda satışının təşkil olunması istiqamətində də, deyək ki, atılan uğurlu addımlardan biri kimi dəyərləndirmək olar. Bunu sahibkarlığa və bütövlükdə yerli istehsala bir stimullaşdırıcı tədbir kimi nəzərə almaq olar.

Digər bir məsələni də qeyd etmək istərdim. Cəlb olunan vəsaitlərin tərkibinə baxarkən görürük ki, orada vergi və rüsumlar da xeyli, 38,4 faiz təşkil edir. Mən Hesablama Palatasının fəaliyyətini bütövlükdə müsbət qiymətləndirirəm.

**Sədrlik edən.** Sağ olun. Siyavuş Novruzov.

**S.Novruzov**. Təşəkkür edirəm. Hörmətli Sədr, hörmətli deputatlar, mən də hesab edirəm ki, Hesablama Palatasının illik hesabatı çox ətraflı şəkildə və müxtəlif dəyişikliklərlə hazırlanıb, təqdim olunubdur. İlbəil bu hesabatın yeniliklərini, əhatə dairəsinin genişlənməsini, yeni mövzuların, sahələrin daxil olunmasını görürük və deputat

həmkarlarımdan xahiş edirəm ki, səs verək, nəzərə alaq.

Oqtay müəllim, bir neçə təklifimi bildirmək istəyirəm. Bu ondan ibarətdir ki, biz "Hesablama Palatası haqqında" Qanun qəbul etdik və fikrimin əvvəlində də qeyd etdim, Hesablama Palatası öz imkanları daxilində, hətta bəzi hallarda görürsən, imkanlarından kənar fəaliyyət göstərir. O qüvvə, o aparat, o tərkib ilə az olsa da, lakin böyük işlər görür, addımlar atır. Amma mən strukturda ciddi şəkildə, müəyyən dəyişikliyin olunmasının tərəfdarıyam.

Birinci növbədə, biz köhnə sistemdən çıxıb yeni sistemə daxil olmalıyıq. Bu gün görürsünüz ki, ölkəmizdə ciddi sosial-iqtisadi islahatlar həyata keçirilir. Cənab Prezident tərəfindən müxtəlif addımlar atılır, struktur islahatları aparılır, yeni strukturlar yaradılır. Köhnələr, öz fəaliyyətini düzgün istiqamətdə qurmayanlar ləğv olunur. Bu baxımdan, Hesablama Palatasının da gələcək fəaliyyətini, – düzdür biz keçən il qanunu qəbul etdik, – nəzərdə tutmalıyıq ki, bu qanuna əlavə və dəyişiklik etməklə bu fəaliyyətin istiqamətlərini Prezidentin apardığı islahatların sürətinə gətirib çatdıra bilək. Götürək ki, orada planlı və plansız yoxlamalar nəzərdə tutulur. Biz indi gözləməliyik, 5 il bir insan lövbər salsın oranı dağıtsın, ondan sonra və burada yoxlama nəticəsində əgər, təbii, hər hansı siqnal daxil olunmayıbsa, ortaya çıxsın, bu qədər dövlət əmlakını mənimsəyibdir və tələb qoyulsun ki, bunu geri qaytarsın. Faktiki indi artıq müxtəlif sahələrdə bunlar üzə çıxır. Bunu da geri qaytara bilmir, vəsaiti sərf edib və ya deyir ki, ümumiyyətlə, olmayıbdır. Cəza çəkməni daha üstün tutur nəinki, dövlətdən oğurladığı o vəsaitin geri qaytarılmasını. Ortada itirən dövlətdir, insanlardır, onların əmək haqqına və yaxud sosial təminatına sərf olunan vəsaitdir. O baxımdan da, hesab edirəm ki, bu hesabatlar,

yoxlamalar illik, bəlkə də lazım olsa, 6 aylıq olsun.

Hesablama Palatası monitorinq aparmalıdır, onu yoxlayıb hansısa bir formada, təbii, son nəticədə büdcəyə ödəmələri təmin etməlidir. Aralıq dövrdə isə ciddi şəkildə dövlət vəsaitinin sərf olunmasının monitorinqi aparılmalıdır. Əgər lazımdırsa, bura əlavə kadrlar cəlb olunmalıdır, sahə genişlənməlidir ki, korrupsiyaya meyllənmək istəyən insanların qarşısı alınsın və bu məsələ öz həllini tapsın. O baxımdan da gələcək fəaliyyətdə bunlar nəzərə alınmalıdır və biz bu işləri yeni mexanizmlə, yeni metodla həyata keçirməliyik.

İndi məhkəmə-hüquq sahəsində ciddi islahatlar başlanıbdır, bu proseslər gedir. Hesablama Palatasının fəaliyyəti də həmin struktur ilə bilavasitə bağlıdır. Əgər bir hal baş verirsə, dərhal ora müraciət edirsə, görürsən ki, orada da illərlə bu məsələlər uzadılırdı, bu məhkəmədən o məhkəməyə, o birisinə və sair və ilaxır. Olan vəsaitlərin geri qaytarılması prosesi gecikirdi. O baxımdan, hesab edirəm ki, bunları da biz nəzərə almalıyıq.

Fikrimin sonunda, Oqtay müəllim, təklif edirəm, səsə qoyaq, nəzərə alaq və Hesablama Palatasına əgər lazımdırsa, əlavə dəstək verək ki, dövlət büdcəsinə nəzarət edən bir orqan kimi bu məsələlərdə bundan sonra da ciddi addımlar atsın. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. 2 nəfər qalıb. Təkid edən var?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Qüdrət Həsənquliyev.

**Q.Həsənquliyev.** Çox təşəkkür edirəm, Oqtay müəllim. Hörmətli millət vəkilləri, media nümayəndələri. Doğrudan da, Hesablama Palatası bizə normal bir hesabat təqdim eləyib. Əvvəlcə onu qeyd eləmək istəyirəm ki, biz müvafiq qanunlarda nəzərdə tutmalıyıq, əgər Hesablama

Palatasının, tutaq, hesabatını qeyri-məqbul sayırıqsa, bu, hansı nəticələr doğurur? Bizdə hökumət hesabat verir. Onunla da bağlı xüsusi Konstitusiya qanunu qəbul olunur, çox təəssüf ki, orada da bəlli olmur, hökumətin hesabatını qeyri-məqbul saysaq, bundan hansı nəticələr doğur? Bu məsələləri biz həll eləməliyik.

İkinci məsələ. Hesab edirəm ki, Hesablama Palatası hesabatında nöqsanlarla bağlı kifayət qədər bizə məlumatlar verib. Biz, sadəcə, Hesablama Palatasının fəaliyyətinə qiymət verməli deyilik, həm də həmin hesabatda göstərilən nöqsanların aradan qaldırılması üçün ali qanunverici orqan kimi fəaliyyət göstərməliyik. Hərəkətə keçməliyik və çalışmalıyıq ki, öz üzərimizə düşən vəzifələri yerinə yetirək və Hesablama Palatasına dəstək olaq. Hökumət ilə bu istiqamətdə əməkdaşlıq edək və hökumətdən də soruşaq, niyə Hesablama Palatasının təqdim elədiyi 21 təklifdən 13-ü nəzərə alınıb, 4-ü nəzərə alınmayıb, 4-ünə isə dediyim kimi baxılmayıb. Yəni bu məsələlərdə, mən hesab edirəm, biz Hesablama Palatasına dəstək verməliyik.

Burada qeyd olunur ki, Hesablama Palatası hətta bəzi hallarda bizə cinayət xarakterli məlumatlar təqdim edir. 23 milyon manat dövlət büdcəsinə qaytarılıb. Bu kifayət qədər böyük vəsaitdir. Məsələn, hazırda cəmiyyətdə kim isə 5 min manat oğurlasa, tutub ona 5 il iş verirlər. Amma 23 milyon manatı oğurlamış insanlar, əslində, o da oğurluqdur da, aşkarlanıb və sonradan o vəsait məcburi qaydada büdcəyə ödənilib. Onların haqqında hansı tədbir görülür, bu qanunu pozanlar hansısa məhrumiyyətlər ilə üz-üzə gəlməlidir? Yoxsa, mən əvvəllər də söyləmişəm, oğurlayım, üstü açılsa, qaytarıb qoyaram yerinə. Yəni bu yanaşma ilə düşünmürəm ki, biz cinayətkarlığa, qanun pozanlara qarşı səmərəli mübarizə apara biləcəyik. Mən

düşünürəm, Hesablama Palatasının bizə təqdim elədiyi hesabat, baxmayaraq, Hesablama Palatası müvafiq orqanlara göndərir, amma biz də öz adımızdan həmin materialları respublikanın Baş Prokurorluğuna göndərə bilərik ki, həmin qanun pozuntularına hüquqi qiymət verilsin.

Oqtay müəllim, sonda diqqətinizi başqa bir məsələyə cəlb eləmək istəyirəm. Bu onunla bağlıdır ki, qonşu İran Respublikasında təbii fəlakət baş verib. Orada 1900-dən artıq kənd və qəsəbə sel sularının altında qalıb, 100 min insan ev-eşiyindən didərgin düşüb, 70-dən artıq insan ölüb, 800-ə qədər insan isə yaralanıb. Hazırda İran sanksiyalar altında olan bir ölkədir. İran bizim yaxın qonşumuzdur. Baxmayaraq ki, biz İran hökumətinin Ermənistanla siyasətini tənqid edirik, Cənubi azərbaycanlılara münasibətdə davranışını pisləyirik, amma onlar bizim din qardaşlarımızdır. O hökumətin siyasətidir, Azərbaycan hökuməti həmişə darda olanlara əl uzadıb, bir humanist addım atıb. Bu bir humanitar yardım olardı və əhalimiz, baxmayaraq ki, özümüzün bir milyon qaçqınımız var, xalqımız da həmişə bu kimi hallarda olduğu kimi, yenə hökumətin bu addımını dəstəkləmiş olardı. Mən hesab edirəm, hökumətimiz də bu istiqamətdə addım atsın. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Müzakirələr axıra çatdı. Xahiş edirəm, Hesablama Palatasının hesabatının nəzərə alınması haqqında qərar layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.11 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

İştirak edir 96
Nəticə: Qəbul edildi

Çox sağ olun, qəbul edildi.

Vüqar müəllim, mən Sizə və sizin kollektivə minnətdarlığımı bildirirəm, uğurlar arzulayıram. Sağ olun.

Gündəliyin 2-ci məsələsi "Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında Azərbaycan Respublikasının və Qazaxıstan Respublikasının rabitə operatorları tərəfindən Azərbaycan–Qazaxıstan marşrutu üzrə Xəzər dənizinin dibi ilə fiber-optik rabitə xətlərinin birgə tikintisi, sahibliyi və istifadəsində müştərək fəaliyyətin təşkili haqqında" Sazişdir. Buyursun Ziyad Səmədzadə.

**Z.Səmədzadə.** Hörmətli millət vəkilləri, adı çəkilən Saziş Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında artıq formalaşmış, gündən-günə inkişaf edən əməkdaşlığın daha da təkmilləşməsinə yönəlmişdir. Saziş tranzit və digər xidmətlərin təmin edilməsi üçün texniki imkanların artırılması məqsədi ilə Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında rabitə şəbəkələrinin birləşdirilməsi, o cümlədən beynəlxalq telekommunikasiya şəbəkələrinin və magistral yolların diversifikasiyasının və səmərəliyin artırılması zərurətindən irəli gəlir. Sazişin tərəfləri Xəzər dənizinin dibi ilə fiber-optik rabitə xətlərinin birgə tikintisi, sahibliyi və istifadəsi layihəsinin həyata keçirilməsində əməkdaşlıq edəcəklər. Layihənin həyata keçirilməsi üçün tərəflərin rabitə operatorları birgə müəssisə yaradacaqlar. Qeyd olunmalıdır ki, Azərbaycan Respublikasının rabitə operatoru qismində "Azərtelekom" Məhdud Məsuliyyətli Cəmiyyət nəzərdə tutulubdur. Millət

vəkillərindən qanun layihəsinə səs verməlırini xahiş edirəm.

**Sədrlik edən.** Aydın Mirzəzadə.

**A.Mirzəzadə**. Təşəkkür edirəm, cənab Sədr. Mən qanun layihəsini bəyənirəm və ona səs verəcəyəm.

Hörmətli cənab Sədr, hörmətli deputatlar, ötən ilin aprel ayının 11-də Azərbaycanda Prezident seçkiləri keçirildi. 2 gün sonra biz Prezident seçkilərinin bir ilini qeyd edəcəyik. Ötən ilin Prezident seçkilərində Azərbaycan seçicilərinin 86 faizi cənab İlham Əliyevin namizədliyinə səs verdi. Bu isə 3,3 milyon nəfər seçici deməkdir. Bu ötən bir il bu etimadın layiqli olduğunu və cənab Prezidentin bu etimadı doğrultduğunu göstərdi. 2003-cü ildə cənab Prezident dövlət başçısı seçilərkən bildirdi ki, “mən hər bir azərbaycanlının prezidenti olacağam”. Hər bir seçkidə o, öz deyimini bir daha təsdiqlədi və hər bir azərbaycanlı bu gün cənab İlham Əliyevin Prezident olması ilə fəxr edir.

Mən ötən illə bu ilin, sadəcə olaraq, büdcəsini müqayisə etmək istəyirəm. 2018-ci ilin büdcəsi 19 milyard manat idisə, bu ilin büdcəsi 24 milyard manatdır. Bu, 5 milyard manat fərqdir. Dollar ilə götürsək, bu, 2,8 milyard ABŞ dollarıdır. Bir ildə büdcəmizin fərqi 2,8 milyard dollar edir. Qonşu işğalçı Ermənistanın illik büdcəsi 2,8 milyard dollardır. Yəni Azərbaycanın sosial-iqtisadi inkişafı cənab Prezidentin apardığı siyasətin ana xəttidir. Bu gün biz Azərbaycanda bütün sahələrdə inkişafdan danışa bilərik. Regionların sosial-iqtisadi inkişafına dair 3-cü proqram yerinə yetirildi, 4-cü daha yüksək göstəricilər ilə qəbul edildi.

Azərbaycan xarici siyasətinin uğurları göz qarşısındadır. Avropa Parlamenti, Avropa Birliyinin rəsmiləri

Azərbaycanın ərazi bütövlüyünün dəstəklənməsi ilə bağlı öz bəyanatlarını verdilər. Dağlıq Qarabağ məsələsində Azərbaycanın mövqeyi kifayət qədər güclənibdir və Azərbaycanın prinsipial mövqeyini Ermənistan da qəbul etməli olur. Onların bütün səylərinə baxmayaraq, danışıqlar Azərbaycan və Ermənistan arasında gedəcəkdir.

Bu ildən başlayaraq həm müxtəlif struktur islahatlarının keçirilməsi, həm də əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması ilə bağlı bir-birinin ardınca çox möhtəşəm proqramların qəbul edilməsi cənab Prezidentin dövlət başçısı, lider kimi vəzifəsinin öhdəsindən gəldiyini göstərir. Bu günlər isə Azərbaycanda 10 milyonuncu sakinin anadan olması, eyni zamanda, Azərbaycanın sosial sahədə inkişafını, Azərbaycan vətəndaşının öz ölkəsinə, öz torpağına bağlılığını göstərdi.

Mən bir illik yubiley münasibəti ilə cənab Prezidenti təbrik edirəm. Ona uğurlar arzulayıram və bildirirəm ki, onun rəhbərliyi Azərbaycan üçün həmişə uğur deməkdir.

**Sədrlik edən.** Sağ olun. Cənab Prezidentin apardığı uğurlu siyasətə nəinki Azərbaycanın daxilində, həm də Azərbaycanın xaricində, Avropa Şurasında, Amerikada, Avropada da yüksək qiymət verilir. Bu aydın məsələdir.

Xahiş edirəm, gündəliyin 2-ci məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.16 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

Qəbul edildi, çox sağ olun.

Gündəliyin 3-cü məsələsi Azərbaycan Respublikasının Ailə Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədədir. Buyursun Hadi Rəcəbli.

**H.Rəcəbli,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri.*

Hörmətli Oqtay müəllim, hörmətli deputat həmkarlarım. Ailə Məcəlləsinə bir, 196-cı maddə əlavə olunur. Bu maddənin adı belədir, "Dəfnlərin reyestri". Belə bir fikir var ki, dəfnlərin vahid dövlət reyestri müvafiq icra hakimiyyəti orqanı tərəfindən aparılır. Bu, Ailə Məcəlləsində olan dəyişiklikdir.

İnzibati Xətalar Məcəlləsinə, 54-cü maddəyə bir abzas əlavə olunur. "516.1.2. (qəbiristanlıqların qorunması tələblərinin pozulmasına münasibətdə), 516.1.3. (dəfnə icazə verilməyən ərazilərdə dəfnlərin həyata keçirilməsinə münasibətdə)". Belə bir müddəa da bura salınıbdır. Bütövlükdə, bu, başqa qanunlara edilən dəyişiklikdir. Bilirsiniz ki, bizim belə bir müvafiq qanun var, o qanunda və bu iki məcəllədə öz əksini tapacaqdır. Xahiş edirəm, deputat həmkarlarım səs versinlər.

**Sədrlik edən.** Çox sağ olun. Əli müəllim, əlavəniz yoxdur ki?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Əgər başqa fikir yoxdursa, xahiş edirəm, gündəliyin 3-cü məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.18 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |

İştirak edir 
Nəticə: Qəbul edildi

Qəbul edildi, çox sağ olun.

Gündəliyin 4-cü və 5-ci məsələləri bir məktubda daxil olub. 4-cü məsələ Azərbaycan Respublikası Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında, 5-ci məsələ "Gömrük tarifi haqqında" Qanunda dəyişiklik edilməsi barədədir. Buyursun Ziyad Səmədzadə.

**Z.Səmədzadə.** Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri. Məlum olduğu kimi, 2017-ci ilin sentyabrın 20-də Avropa Futbol Assosiasiyaları Birliyi İcraiyyə Komitəsi tərəfindən 2019-cu ildə futbol üzrə UEFA Avropa Liqasının final oyununun Bakı Olimpiya Stadionunda keçirilməsi haqqında qərar qəbul edilmişdir. Ölkəmiz həmçinin 2020-ci ildə futbol üzrə Avropa çempionatının 4 oyununa ev sahibliyi edəcək. Nüfuzlu turnirin final oyununun Bakı şəhərinə həvalə edilməsi ölkəmizdə görülən bütün işlər, o cümlədən idman və bədən tərbiyəsi sahəsində əldə edilən nailiyyətlərə beynəlxalq və Avropa futbol qurumları tərəfindən verilən yüksək qiymətin göstəricisidir. Bu oyunların Bakıda təşkili futbolun daha da inkişafına, ölkəmizdə idman sahəsində həyata keçirilən dövlət siyasətinin gücləndirilməsinə, Azərbaycanın beynəlxalq nüfuzunun daha da artmasına, dünya idman aləmində önəmli yer tutmasına şərait yaradacaqdır.

Bu məqsədlə "Futbol üzrə UEFA Avropa Liqasının final oyununun 2019-cu ildə Bakı şəhərində keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 7 may tarixli sərəncamı imzalanmışdır. Sərəncama əsasən yaradılmış Təşkilat Komitəsinə AFFA ilə birlikdə xüsusi təd-

birlər planının işlənib hazırlanması həvalə edilmişdir. Həmin sərəncama uyğun olaraq müvafiq icra hakimiyyətinin müəyyən etdiyi orqan tərəfindən verilmiş təsisedici sənəd əsasında Azərbaycan Respublikasında keçirilən UEFA 2019 Avropa Liqasının final oyunu və UEFA 2020 Futbol çempionatı ilə əlaqədar olaraq aşağıdakılar məqsədəuyğun hesab edilir.

Malların təqdim edilməsi, işlərin görülməsi və xidmətlərin göstərilməsinə cəlb olunmuş qeyri-rezident fiziki şəxslərin, bu fəaliyyət çərçivəsində qeyri-rezident futbol klublarının oyunçularının və işçilərinin həmin oyunlarla bağlı əldə etdiyi gəlirlər gəlir vergisindən azad olunacaq. UEFA-nın, onun təmsil etdiyi və onun yaratdığı qeyri-rezident hüquqi şəxslərin, qeyri-rezident futbol klublarının həmin oyunla və çempionatla bağlı əldə etdiyi gəlirlər mənfəət vergisindən azad olunacaq. Üçüncü, UEFA, onun yaratdığı qeyri-rezident hüquqi şəxslər və qeyri-rezident futbol klubları tərəfindən həmin oyunla bağlı malların təqdim edilməsi, işlərin görülməsi və xidmətlərin göstərilməsi, habelə malların idxalı ƏDV-dən azad ediləcəkdir və ya ƏDV 0 dərəcə ilə tutulacaqdır. Ölkəyə idxal olunan aksizli mallar aksizdən azad ediləcəkdir.

Qanun oyunların keçirildiyi müddətdə, yəni 2019-cu il martın 1-dən 2020-ci il avqustun 1-dək qüvvədə olacaqdır. Ona görə də millət vəkillərindən bu vacib dəyişikliklərə səs vermələrini xahiş edərdim.

**Sədrlik edən.** Sağ olun, Ziyad müəllim. Fazil Mustafa.

**F.Mustafa.** Hörmətli Sədr, hörmətli millət vəkilləri. Mən də hesab edirəm ki, bu tədbirlər Azərbaycanın tanıtımı, nüfuzu baxımından çox əhəmiyyətli tədbirlərdir. Çünki ölkənin idman sahəsində olan uğurlarının artması, futbolun inkişafı baxımından hər iki tədbirin Azərbay-

canda keçirilməsinə görə əlavə stimullaşdırıcı addımlar atılmalı idi. Biz bunu qanun səviyyəsində həll ediriksə, çox müsbət bir tendensiyadır. Bu həm də AFFA-nın Azərbaycan futbolunun inkişafında gördüyü işlərin də daha da genişlənməsinə imkan yaradacaqdır. Azərbaycan futbolunun inkişafına da, ümid edirəm ki, böyük fayda verəcəkdir.

Amma yalnız idman ilə bizim ölkənin tanıtımı, gələcəyi ilə bağlı müsbət tendensiyanı inkişaf etdirməyimiz yetərli deyil. Mən ötən dəfə də kitabın, çap məhsullarının əlavə dəyər vergisindən azad olunması məsələsini burada qaldırmışdım. Biz vergi ilə bağlı dəyişiklik ediriksə, bu məsələnin də üzərinə əvvəl-axır gəlməliyik. Mən xatırlayıram, ölkə Prezidenti çox gözəl bir tədbir keçirdi, mədəniyyət işçilərini yığdı və onlara dedi ki, mədəniyyətin, ədəbiyyatın problemləri barədə danışın. Onların çoxu öz atalarına heykəl qoyulmasını, özlərinin televiziyaya çıxmasını xahiş etdilər, amma kitabla bağlı olan adamlardan biri təklif etmədi ki, bu 18 faizlik əlavə dəyər vergisini götürmək lazımdır. Gürcüstan götürüb, Türkiyə götürüb. Bizim də çap məhsulları üzərindən bunu götürməyimizə ehtiyac var.

Digər tərəfdən, biz nomenklaturada olmayan yaradıcı insanların da qarşısında Azərbaycan cəmiyyətinin gələcəyi üçün öhdəlik daşıyırıq. Məsələn, Azərbaycanın nomenklaturada olmayan şairlərindən biri Musa Yaqub ağır, xəstə vəziyyətdədir. Müsahibə verir ki, məni heç yana müalicəyə göndərən yoxdur. Biz bəlkə də yüzlərlə lazımsız, ölkənin gələcəyi üçün hansısa bir rolu olmayan adamlara dəstək veririk, təbii, faydalı insanlara da veririk. Ancaq Azərbaycanın tanınmış yazarı, təbii ki, mən demirəm, niyə Musa Yaqub xalq şairi deyil? Əslində, gerçək xalq şairidir. Ramiz Rövşən niyə xalq şairi deyil? Bunları demirəm. Süleyman Abdullayev niyə xalq artisti deyil?

Bunları qoyuram bir tərəfə. İndi subyektiv mülahizələrlə bu məsələlərlə bağlı təqdimatlar verirlər, çox vaxt bu kimi şəxsiyyətlər arxada qalır. Amma diqqəti yönəltmək istəyirəm ki, təkcə idmanla kifayətlənmək olmaz. Biz yaradıcı insanlarımızın bütün sahələrdə dəyərini verməyə çalışmalıyıq. Bir çox hallarda onların problemi qaldırılmır. Hər kəs, dediyim kimi, Prezidentlə görüşür, ictimai məsələ qalır qıraqda, adına küçə verilməsi, yaxınları, doğmaları ilə bağlı hansısa bir problemi həll etməyə çalışırlar. Ona görə də bu məsələlərin də diqqətə çatdırılması vacib olduğuna görə burada əlavə olaraq qeyd etməyi düzgün bildim. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Xahiş edirəm, gündəliyin 4-cü məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.25 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 5-ci məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.25 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 6-cı məsələsi. "Fitosanitar nəzarəti haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə layihə təqdim olunur. Birinci oxunuşdur. Buyursun Eldar İbrahimov.

**E.İbrahimov,** *Milli Məclisin Aqrar siyasət komitəsinin sədri.*

Çox sağ olun, cənab Sədr. Hörmətli deputat həmkarlarım, təqdim olunan qanun layihəsi Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 aprel tarixli 1922 nömrəli Fərmanının icrasını, həmçinin "Fitosanitar nəzarəti haqqında" Qanunda dəyişiklik edilməsi barədə 2018-ci il 28 fevral tarixli Qanuna uyğunlaşmanı təmin etmək məqsədi ilə hazırlanmışdır. Layihə müzakirəyə birinci oxunuşda təqdim olunur. Layihədə "Fitosanitar nəzarəti haqqında" Qanunda və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi nəzərdə tutulur. Dəyişikliklər sizə paylanmış, arayışlar verilmişdir.

Bu dəyişikliklərlə fitosanitar nəzarəti və Dövlət Fitosanitar Xidməti sahələrində fəaliyyət göstərən aidiyyəti dövlət orqanlarının səlahiyyət bölgüsü dəqiqləşdirilir. Qarşılıqlı əməkdaşlıq əlaqələri ilə bağlı məsələləri tənzimləyir. Belə ki, "Fitosanitar nəzarəti haqqında" Qanuna edilmiş dəyişikliyə əsasən fitosanitar nəzarəti ilə Dövlət Fitosanitar Xidməti fərqləndirilmiş, fitosanitar nəzarəti sahəsində səlahiyyətlər Qida Təhlükəsizliyi Agentliyinə, Dövlət Fitosanitar Xidməti sahəsində səlahiyyətlər isə Kənd Təsərrüfatı Nazirliyinə həvalə olunmuşdur. Eyni zamanda, bununla əlaqədar həmin qurumların əsasnamələrində müvafiq dəyişikliklər edilmişdir. Qeyd edilən dəyişikliklərdən irəli gələrək müvafiq sahədə

tənzimlənmənin səlahiyyət bölgüsünə uyğun aparılması ilə bağlı qanunvericilik aktlarında dəyişikliklər edilir. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Buyursun Elmira Axundova.

**E.Axundova.** Çox sağ olun. Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri! "Fitosanitar nəzarəti haqqında" Azərbaycan Respublikasının Qanununda və eyni zamanda, İnzibati Xətalar Məcəlləsində edilən dəyişikliklər anlamlı və məntiqlidir. Yəni burada Qida Təhlükəsizliyi Agentliyi ilə Kənd Təsərrüfatı Nazirliyi arasında səlahiyyətlər daha da dəqiqləşdirilir və bölüşdürülür. Bu başa düşüləndir. Lakin mənim bir sualım var. Olmazdımı ki, bütün bu səlahiyyətlər bir qurumda cəmləşsin? Yəni kəndçi və fermerlər bu iki qurum arasında qalmasınlar. Çünki real vəziyyətdə torpaqda işləyən adam üçün bu və ya digər məsələlərlə bağlı hansı quruma müraciət etməli olduqlarını və həmin qurumların səlahiyyətlərinə nə kimi məsələlərin daxil olmasını dəqiqləşdirmək hərdən çətin olar.

Ümumiyyətlə, hesab edirəm ki, bu və ya digər sahələrdə paralellik aradan qaldırılmalıdır, necə ki, indi hörmətli cənab Prezident tərəfindən bu islahatlar keçirilir və konkret sahəyə konkret bir qurum cavab verməlidir. Yoxsa, ruslarda belə bir məsəl var ki, 7 dayənin baxdığı uşaq gözsüz qalar. Sözümün canı ondadır ki, fitosanitar sahəsində hələ də problemlər çoxdur. Həm pestisidlərin, dərmanların keyfiyyəti, həm də kənd təsərrüfatı məhsullarının saxlanılması və satışında böyük qüsurlar və problemlər vardır. Çox vaxt fermerlər bizə şikayət edirlər ki, yetişdirilən məhsulu müvafiq anbarlarda saxlaya bilmirlər. Anbarlarda ya yer yoxdur, ya da orada saxlama qiymətləri bahadır. Buna görə də onlar əllərindəki çətinliklə yetişdirilən məhsulun müəyyən hissəsini qışa və ya növbəti il

üçün saxlaya bilmirlər. Həmin məhsulları xarab olmasın deyə dəyərindən çox ucuz qiymətə satmalı olurlar. Əlbəttə ki, burada satış mafiyası, bir növ satış monopoliyası da öz mənfi rolunu oynamaqdadır. Məsələn, bizim rayonumuzda belə bir hadisə ötən il soğanla bağlı baş vermişdi.

Ümumiyyətlə, belə məsələlər barədə biz hər gün, hər yerdə, həm də televiziya və digər KİV-lərdən eşidirik. Ona görə, əvvəla, fitosanitar nəzarəti bir qurumda cəmlənsə daha yaxşı olardı. Digər tərəfdən, bu iki qurum fermerlərə belə məsələlərlə bağlı dövlət dəstəyini daha fəal, daha səmərəli, daha mütərəqqi təşkil etməlidir. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Sağ olun. Əgər başqa təklif yoxdursa, xahiş edirəm, qanun layihəsinə birinci oxunuşda münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.31 dəq.) |
|---|---|
| Lehinə | 86 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 86 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

7–12-ci məsələlər bir zərfdə gəlib, dəyişikliklərdir. 7-ci məsələ. Azərbaycan Respublikasının Su Məcəlləsində, Azərbaycan Respublikasının Meşə Məcəlləsində, Azərbaycan Respublikasının Torpaq Məcəlləsində və Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında. Buyursun Valeh Ələsgərov.

**V.Ələsgərov,** *Milli Məclis Sədrinin müavini, Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri.*

Təşəkkür edirəm, cənab Sədr. Hörmətli Milli Məclisin deputatları, müzakirənizə birinci oxunuşda Azərbaycan Respublikasının Su Məcəlləsində, Meşə Məcəlləsində, Torpaq Məcəlləsində, Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi təqdim olunmuşdur. Adları çəkilən məcəllələrdə təklif edilən dəyişikliklər 2018-ci il 12 iyun tarixli "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Qanunun icrasını təmin etmək məqsədi ilə edilir. O cümlədən bu qanunun əlavəsində göstərilən fəaliyyətlərin həyata keçirilməsi zamanı ətraf mühitə və insan sağlamlığına mümkün mənfi təsirlərin aşkarlanması, azaldılması, aradan qaldırılması, qarşısının alınması məqsədi ilə təklif edilmişdir.

Misal üçün, Su Məcəlləsinin 23-cü maddəsinin mövcud mətnində göstərilmişdir ki, "Su obyektlərinin istifadəsini, mühafizəsini və suların zərərli təsirinin qarşısının alınması tədbirlərini hazırlamaq və həyata keçirmək üçün su təsərrüfatı balansları, su ehtiyatlarının kompleks istifadəsi və mühafizəsi sxemləri, dövlət su kadastrı məlumatları əsasında dövlət proqramları işlənib hazırlanır". Yuxarıda göstərdiyim səbəbdən indi təklif olunur ki, 23-cü maddəyə aşağıdakı məzmunda 3-cü hissə əlavə edilsin: "Bu proqramların layihələrinə dair "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada strateji ekoloji qiymətləndirmə (SEQ) sənədi hazırlanır və həmin sənədin dövlət ekoloji ekspertizası həyata keçirilir".

Digər, 27-ci, 94-cü maddələrdə göstərilən əlavələr də bununla əlaqədar təklif edilir. Sizə təqdim edilmiş qanun

layihəsindən və müvafiq arayışlardan gördüyünüz, bundan öncə dediyim kimi, edilən dəyişikliklərin məqsədi vaxtilə qəbul etdiyimiz "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Qanunun icrasını təmin etməkdir. Ona görə, mənim fikrimcə, bir-bir sadalamağa, izah etməyə ehtiyac yoxdur. Təklif edirəm ki, təqdim edilmiş qanun layihəsini dəstəkləyək və qəbul edək. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Fəzail Ağamalı.

**F.Ağamalı.** Təşəkkür edirəm, cənab Sədr. Mən təqdim olunmuş qanun layihələrini çox yüksək qiymətləndirirəm, düşünürəm ki, çox əhəmiyyətli qanun layihələridir. Ətraf mühitin qorunub saxlanmasında, onun təmizliyinin təmin edilməsində, eyni zamanda, ekoloji təmizliyin həyata keçirilməsində bu dəyişikliklər və əlavələr öz müsbət töhfəsini verəcəkdir.

Xüsusi olaraq qeyd etmək istərdim ki, dəniz limanı ilə bağlı qanun layihəsində edilən 5.4-cü, 5.5-ci və 5.6-cı əlavələr imkan verəcək ki, Xəzər dənizinin təmizliyi, həqiqətən, qorunub saxlansın. Dəfələrlə, cənab Sədr, biz Milli Məclisdə Bakının dənizkənarı parkında Xəzər dənizi sahillərində çirkliliyin şahidi olmuşuq. Bu məsələ burada dəfələrlə qaldırılıbdır. Çox təəssüf edirəm ki, bu günə qədər orada həmin təmizlik tamamilə təmin olunmayıbdır. Bunun da başlıca səbəbi, deyilənlərə görə, çirkli kanalizasiya sularının və çirkabların dənizə, həmin parka axıdılması ilə bağlıdır. Bu məsələ də, düşünürəm ki, öz həllini tapsa, son dərəcə əhəmiyyətli olardı.

Bu layihələr imkan verəcək ki, müvafiq qurum başlamış olduğu işi daha ciddi və uğurla həyata keçirsin. İndi bildiyiniz kimi, artıq meşə təsərrüfatına, ətraf mühitə münasibətdə çox fərqli, müsbət dəyişiklik özünü ifadə etməkdədir. Yeni ağaclar əkilir, meşə zolaqları salınır. Əlbəttə,

bütün bunlar son dərəcə ciddi və müsbət hadisələrdir. Bir daha təkrar edirəm, təqdim olunan bu qanun layihəsi imkan verəcək ki, başlanmış proses qanunvericilik çərçivəsində daha da uğurlu aparılsın. Ancaq mənə belə gəlir ki, bu dəyişiklik və əlavələrdən sonra İnzibati Xətalar və Cinayət məcəllələrində də biz dəyişikliklər etməliyik. Mənə belə gəlir ki, qanunun sərtləşməsinə ciddi ehtiyac var. Qanun layihələrini yüksək qiymətləndirirəm və səs verəcəyəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.37 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Növbəti 8-ci məsələ. “Meliorasiya və irriqasiya haqqında”, “Əhalinin radiasiya təhlükəsizliyi haqqında”, “Balıqçılıq haqqında”, “Elektroenergetika haqqında” və “Nəqliyyat haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi. Birinci oxunuş. Buyursun Eldar İbrahimov.

**E.İbrahimov.** Çox sağ olun, hörmətli cənab Sədr. Hörmətli deputat həmkarlarım, birinci oxunuşda təqdim olunan qanun layihəsi “Meliorasiya və irriqasiya haqqında”, “Əhalinin radiasiya təhlükəsizliyi haqqında”, “Balıqçılıq haqqında”, “Elektroenergetika haqqında” və “Nəqliyyat

haqqında" qanunlarda dəyişiklik edilməsini nəzərdə tutur. Layihə "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" 2018-ci il iyunun 12-də qəbul edilmiş Qanunun icrasını təmin etmək məqsədi ilə hazırlanmışdır. Ətraf mühitə təsirin qiymətləndirilməsində əsas məqsəd bu qanunun əlavəsində göstərilən fəaliyyət növlərinin həyata keçirilməsi zamanı ətraf mühitə və insan sağlamlığına mümkün mənfi təsirlərin aşkarlanması, aradan qaldırılması və ya azaldılması üçün tədbirlərin həyata keçirilməsidir. Qanunlara edilən dəyişiklik sizə paylanmışdır, arayış da verilmişdir.

Burada "Meliorasiya və irriqasiya haqqında" Qanuna təklif olunan dəyişikliyə əsasən meliorasiya və irriqasiya sistemlərinin layihələri ətraf mühitə təsirin qiymətləndirilməsindən keçməlidir.

Əhalinin "Radiasiya təhlükəsizliyi haqqında" Qanuna təklif olunan dəyişikliyə əsasən radiasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində dövlət proqramlarının layihələrinə dair strateji ekoloji qiymətləndirmə (SEQ) sənədi hazırlanmalı və həmin sənədin dövlət ekoloji ekspertizası həyata keçirilməlidir.

Göstərilən digər dəyişikliklər balıqçılıq haqqında, elektroenergetika haqqında, nəqliyyat haqqında olan qanunlarla bağlıdır. Siz bunlara baxmısız və qanuna tam uyğundur. Ona görə də cənab Sədr, xahiş edirəm, qanun layihəsinə səs verək.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Xahiş edirəm, gündəliyin 8-ci məsələsinə birinci oxunuşda münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.40 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Elə bu qəbildən olan 9-cu məsələ. "Ekoloji təhlükəsizlik haqqında", "Su təchizatı və tullantı suları haqqında", "Avtomobil yolları haqqında", "Ətraf mühitə dair informasiya almaq haqqında", "Aviasiya haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə. Valeh müəllim, xahiş edirəm.

**V.Ələsgərov.** Deməli, yenə də təklif edilən dəyişikliklərin məqsədi bayaq adını çəkdiyim "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun icrasını təmin etməkdir. Yəni "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Qanunun tələblərinə uyğun olaraq burada sadalanan qanunlarda müvafiq dəyişiklikləri edərək bu qanunun icrasını təmin edəcəyik. Ona görə, mənim fikrimcə, əlavə izahata ehtiyac yoxdur. Təklif edirəm ki, səs verək, birinci oxunuşda qəbul edək.

**Sədrlik edən.** Xahiş edirəm, gündəliyin 9-cu məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.41 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

10-cu məsələ "İctimai iştirakçılıq haqqında", "Dəniz limanları haqqında", "Yaşıllıqların mühafizəsi haqqında" və "Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsidir. Buyursun Əli Hüseynli.

**Ə.Hüseynli,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun, cənab Sədr. "İctimai iştirakçılıq haqqında" və digər qanunlarda da ətraf mühitə təsirin qiymətləndirilməsi və strateji ekoloji qiymətləndirmə ilə bağlı ictimai dinləmə təşkil etmək, habelə ictimai ekoloji ekspertizanı "Ətraf mühitin mühafizəsi haqqında" Qanuna uyğun olaraq həyata keçirmək və onun nəticələri barədə aidiyyəti üzrə məlumat vermək öhdəliyi qoyulur və bu müddəalar əlavə olunur. Səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Xahiş edirəm, gündəliyin 10-cu məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.42 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Elə bu qəbildən 11-ci məsələ. "Kənd təsərrüfatı kooperasiyası haqqında", "Ətraf mühitə təsirin qiymətləndiril-

məsi haqqında", "Turizm haqqında" və "Elektrik və istilik stansiyaları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə. Buyursun Eldar İbrahimov.

**E.İbrahimov.** Çox sağ olun, hörmətli cənab Sədr. Hörmətli deputat həmkarlarım, birinci oxunuşda təqdim olunan qanun layihəsi "Kənd təsərrüfatı kooperasiyası haqqında", "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında", "Turizm haqqında" və "Elektrik və istilik stansiyaları haqqında" qanunlarda dəyişiklik edilməsini nəzərdə tutur.

Layihə "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" 2018-ci il 12 iyun tarixdə qəbul edilmiş Qanunun icrasını təmin etmək məqsədi ilə hazırlanmışdır. Ətraf mühitə təsirin qiymətləndirilməsində əsas məqsəd bu qanunun əlavəsində göstərilən fəaliyyət növlərinin həyata keçirilməsi zamanı ətraf mühitə və insan sağlamlığına mümkün mənfi təsirlərin aşkarlanması, aradan qaldırılması və ya azaldılması üçün tədbirlərin həyata keçirilməsidir. Qanunlara edilən dəyişiklik sizə paylanmış arayışda verilmişdir.

"Kənd təsərrüfatı kooperasiyası haqqında" Qanuna təklif olunan dəyişikliyə əsasən su, torpaq, meşə, bitki və heyvanlar aləmindən istifadənin əsaslandırılması, eləcə də torpaqların, bitki və heyvanlar aləminin, biomüxtəlifliyin mühafizəsi və bərpası, xüsusi mühafizə olunan təbiət əraziləri və obyektlərinin statusunun qorunması məqsədi ilə kooperativlərin, kənd təsərrüfatı məhsullarının istehsalı üzrə ixtisaslaşmış heyvandarlıq və quşçuluq məhsulları istehsalı müəssisələrinin, həmçinin irimiqyaslı kənd təsərrüfatı, habelə balıqçılıq cəhətdən akvakultura təsərrüfatı fəaliyyəti üzrə layihələrin "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Qanunda nəzərdə tutulmuş

qaydada ətraf mühitə təsirinin qiymətləndirilməsi həyata keçirilməlidir. Bu qanun komitədə müzakirə olunub, bizim deputat həmkarlar yüksək səviyyədə fikirlərini deyiblər və qəbul olunub. Ona görə də, cənab Sədr, xahiş edərdim, səsə qoyaq.

**Sədrlik edən.** Başqa təklif yoxdursa, xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.45 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Bu məktubda bu qəbildən sonuncu məsələ. İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə. Buyursun Əli Hüseynli.

**Ə.Hüseynli.** Çox sağ olun. İnzibati Xətalar Məcəlləsinə əlavə edilən 275.3-cü maddənin aşağıdakı redaksiyada verilməsi təklif olunur. "Ətraf mühitə təsirin qiymətləndirilməsi və strateji ekoloji qiymətləndirilmə sənədlərinə qiymətləndirici tərəfindən bilə-bilə yalan rəy verilməsinə görə". Buna görə məsuliyyət müəyyən olunur.

**Sədrlik edən.** Xahiş edirəm, 12-ci məsələyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.46 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 1 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

13-cü və 14-cü məsələlər də bir zərfdə gəlib. Bu, “Təhsil haqqında” Qanuna uyğunlaşdırmaq məqsədi ilə təklif edilən qanun layihəsidir. Buyursun İsa Həbibbəyli.

**İ.Həbibbəyli,** *Milli Məclisin Elm və təhsil komitəsinin sədri.*

Burada qeyd olunduğu kimi, həm 13-cü, həm də 14-cü məsələlərdə olan dəyişikliklər 2018-ci il iyunun 12-də “Təhsil haqqında” Qanuna edilmiş əlavələrdən sonra bu qanunlara uyğunlaşdırma məqsədi daşıyır. Nəzərdə tutulan 6 əlavə və dəyişiklikdən 4-ü redaktə xarakterlidir. 13 və 14-cü məsələlərdə adları çəkilən qanunlara təhsilin digər pillələri ilə yanaşı, “adyunktura” sözünün əlavə olunması nəzərdə tutulub. Bu, tamamilə təbiidir. Bundan başqa, burada bir sıra maddələrdə məktəbəqədər təhsil müəssisələrinin ayrı-ayrı formalarının adlarının sadalanması əvəzinə ümumi şəkildə “məktəbəqədər təhsil müəssisəsi”, yaxud “müəssisələri” sözlərinin yazılması təklif edilir ki, bu da qanunun daha lakonik səslənməsi üçün özünəməxsus əhəmiyyətə malikdir.

Bundan başqa, bir sıra maddələrdə öz əksini tapmış “şagird elektron məlumat mərkəzi” əvəzinə “şagird-məzun dövlət elektron məlumat sistemləri” ifadəsinin əlavə edilməsi təklif olunur ki, bu da müasir formatı daha dəqiq ifadə etməyə xidmət edir.

Bundan başqa, “Məktəbəqədər təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa “Təhsil haqqında” Qanuna edilmiş əlavələrlə əlaqədar məktəbəqədər təhsil

müəssisələrində psixoloji xidmətin təşkili ilə bağlı maddənin əlavə edilməsi təklif olunur. Bu da məktəbəqədər təhsil müəssisələrinin reallığını və ehtiyaclarını normal ifadə etməyə xidmət edən əhəmiyyətli bir əlavədir. Eyni zamanda, məktəbəqədər təhsil müəssisələrində təsisçisi əcnəbi vətəndaşlar və ya vətəndaşlığı olmayan şəxslər olarkən işçilərin say həddinin Azərbaycan Respublikasının vətəndaşlarının çoxluğu əsasında təmin edilməsinə aid olan müddəadır. Burada dövlətçilik və milli maraqlar əsas götürülüb.

Eyni zamanda, maddədə qeyd olunur ki, belə hallar olmadıqda, – adətən, belə hallar, demək olar ki, olmur, – tərbiyəçi-müəllim heyətinin say tərkibi dəyişə bilər.

Bütövlükdə təklif edilən əlavə və düzəlişlər təhsil sahəsinə aid olsa da, adı çəkilən qanunların da təkmilləşməsinə və müasir inkişafa xidmət etməsinə kömək edə bilər. Səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun. Gündəliyin 13-cü məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.50 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

14-cü məsələyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.50 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Cəmi 5 qanunumuz qalıb, əgər etiraz etməsəniz, tənəffüssüz işləyib qurtaraq.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** 15–19-cu məsələlər bir zərfdə daxil olub. 15-ci məsələ Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədədir. Buyursun Əli Hüseynli.

**Ə.Hüseynli.** Çox sağ olun. Oqtay müəllim. İcazə versəydiniz, 15–16-cı məsələlər bizim komitəyə aid olduğuna görə birgə məruzə edərdim. Bildiyiniz kimi, 2018-ci il mayın 4-də "Mühasibat uçotu haqqında" Qanun qəbul olunmuşdu və bu qanunun tətbiqi ilə bağlı həm İnzibati Xətalar Məcəlləsinə, həm də Mülki Məcəlləyə dəyişikliklər təklif olunur.

Əsas dəyişikliyin mahiyyəti ondan ibarətdir ki, "Mühasibat uçotu haqqında" Qanunun tələblərinə görə baş mühasiblər tərəfindən peşəkar mühasib sertifikatının əldə edilməsi mərhələli şəkildə müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir. Mühasibat uçotu üzrə qanunvericiliyin pozulması maddəsi, onun dispozisiyası məhz "Mühasibat uçotu haqqında" Qanuna uyğun olaraq yenidən verilir. Məsuliyyət isə, göründüyü kimi, ciddi cərimə sanksiyalarıdır. Həmkarlarımdan səs verməyi xahiş edirəm.

**Sədrlik edən.** Xahiş edirəm, gündəliyin 15-ci məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.52 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.
Gündəliyin 16-cı məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.53 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 87 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.
17-ci məsələ. "Auditor xidməti haqqında", "İnvestisiya fəaliyyəti haqqında", "Müflisləşmə və iflas haqqında", "Kiçik sahibkarlığa dövlət köməyi haqqında", "Yeyinti məhsulları haqqında" və başqa qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi. Buyurun, Ziyad Səmədzadə.

**Z.Səmədzadə**. Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri. 18-ci və 19-cu məsələlər də bu qəbildən olan məsələlərdir. İcazə versəydiniz, bir yerdə məlumat verərdim. 17-ci, 18-ci və 19-cu məsələlər. Qanun layihəsinə görə kiçik sahibkarlıq subyektləri "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq mühasibat uçotunu aparmalı, maliyyə, habelə statistik hesabatlar təqdim etməlidirlər. Onların Azərbaycan Respublikasının Vergi Məcəlləsi əsasında vergi orqanlarına

təqdim etdikləri vergi hesabatları “Mühasibat uçotu haqqında” Qanunun tələblərinə uyğun olaraq təqdim etdikləri maliyyə hesabatlarını əvəz etmir. Eyni zamanda, kredit ittifaqlarında “Mühasibat uçotu haqqında” Qanunun tələblərinin təmin edilməsinə nəzarətin maliyyə bazarlarına nəzarət orqanı tərəfindən həyata keçirilməsini nəzərdə tutur. Qanun layihəsi həmçinin dəqiqləşdirmə xarakterli bir sıra dəyişiklikləri də nəzərdə tutur. Ona görə də millət vəkillərindən bu qanun layihəsinə səs vermələrini xahiş edərdim.

19-cu məsələdə təklif edilən dəyişikliklərə əsasən həmin qanuna uyğun olaraq bankların baş mühasiblərinin və bu vəzifəni icra edən şəxslərin peşəkar mühasib olması ilə bağlı tələblər müəyyən edilib. Eyni zamanda, banklar tərəfindən “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinin təmin edilməsinə nəzarətin maliyyə bazarlarına nəzarət orqanı tərəfindən həyata keçirilməsi nəzərdə tutulub.

“Mühasibat uçotu haqqında” Azərbaycan Respublikası Qanununa təklif olunan dəyişiklik kredit təşkilatlarında mühasibat uçotu ilə bağlı hesabatların forması, məzmunu və dövriliyi sahəsində səlahiyyətləri dəqiqləşdirir. Millət vəkillərindən bu qanun layihəsinə də müsbət münasibət bildirmələrini xahiş edərdim.

**Sədrlik edən.** Çox sağ olun. Siz 17-ci, 18-ci və 19-cu məsələlərdən danışırdınız. Siz 19-cu məsələni dediniz?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Xahiş edirəm, gündəliyin 17-ci məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.56 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Gündəliyin 18-ci məsələsinə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.57 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Nəhayət, gündəliyin 19-cu məsələsinə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.57 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Bugünkü iclasımız sona çatdı. Sağ olun.